29 mart 2019-cu il
№11 (8826)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**“Universitetlər, cəmiyyət və bəşəriyyətin gələcəyi”** ⇨səh.5

**Direktor vəzifəsinə növbəti yerləşdirmənin nəticələri** ⇨səh.5

**“Sabahın alimləri”nə nüfuzlu təşkilatların sertifikatları verilib** ⇨səh.5

**YUNESKO-nun “Qlobal məqsədlər” dərsləri** ⇨səh.6

# Yeni müsabiqəyə start verilir

## Müddətsiz əmək müqaviləsi ilə işləmək istəyən müəllimlər üçün



Respublikanın ümumi təhsil müəssisələrində müddətli əsaslarla çalışan müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanılması məqsədilə yeni müsabiqəyə start verilir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzi tərəfindən keçirilən müsabiqədə iştirak etmək istəyən namizədlər cari ilin 1-5 aprel tarixlərində *www.miq.edu.az/muqavile/* saytında qeydiyyatdan keçməlidirlər.

Sözügedən müsabiqələrdə 2017-2018-ci və 2018-2019-cu tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində zəruri keçid balını toplayan, pedaqoji istiqamətlər üzrə orta ixtisas və ya ali təhsilli, tutulmayan və ya yeni yaranan vakant yerlərə müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş müəllimlər iştirak edə bilərlər.

Qeyd edək ki, həvəsləndirmə tədbirləri tətbiq olunmayan müəssisələrə fiziki tərbiyə, musiqi və təsviri incəsənət fənləri üzrə keçid balı 42, digər fənlər üzrə 48, həvəsləndirmə tədbirləri tətbiq olunan müəssisələrə isə bütün fənlər üzrə 36 bal müəyyən edilib.

Müsahibə proqramı və materialları barədə məlumatlar *www.miq.edu.az/muqavile/* saytında yerləşdiriləcək.

# Valideynlərin tərbiyədə rolu

## Ən sadə və əlçatan nümunələrdən biri ailədə valideynlərin şəxsi nümunəsidir

Türk elm adamları uşağın doğuluşunun dörd mərhələdən keçdiyini söyləyərək, bunu aşağıdakı kimi sıralayıblar: birinci, embrionun ilk görüntüləndiyi, yəni hüceyrənin gerçəkləşdiyi, ikinci, 9 aydan sonra olan fizioloji doğum, üçüncü, psixoloji doğum - bu, fizioloji doğumdan sonra uşağın ana ilə ilk təmasıdır və dördüncü, sosial doğum - bu, uşağın məktəbə getdiyi ilk gündür. Diqqət yetirsək, bu dörd mərhələnin ilk üç mərhələsində uşağın sağlamlığının qorunması və tərbiyəsində ilk həlqə anadır, ailədir. Məktəb və cəmiyyət isə ana bətnindən başlayan tərbiyə prosesinə sonradan qoşularaq vaildeynlə birlikdə “sacayaq” formasında uşağın yetişdirilməsində iç-içə hərəkət edir. Deməli, valideynlər uşağın ilk tərbiyəçiləridir. Embrional pedaqogika da tərbiyənin ana bətnində hüceyrənin ilk görüntüləndiyi gündən başlamasını irəli sürərək, ananın rolunu və məsuliyyətini göstərir. Pedaqogika elmində tərbiyə məsələlərinin bir sistem halına gətirilməsində böyük əmək sərf etmiş J.J.Russo, İ.H.Pestalotsi, A.Disterveq, R.Ouen, Y.A.Komenski kimi bir çox fikir adamları, maarifçilər bu sistemdə ailənin, xüsusən də ananın rolunu yüksək qiymətləndiriblər. Məsələn, fransız maarifçisi J.J.Russo tərbiyə haqqında yazdığı əsərində “Ana yoxdursa, uşaq da yoxdur” qənaətinə gəlmişdir. Bundan çox sonralar məşhur türk yazarı Namiq Kamal “Tərbiyə ana qucağında başlayır, hər deyilən kəlmə isə uşağın şəxsiyyətini formalaşdıran bir kərpicdir” deyərək, uşağın həyatında ananın roluna yüksək əhəmiyyət verib. XX əsrin xeyriyyəçisi və maarifçisi H.Z.Tağıyev isə deyirdi ki, “Anaları savadsız olan millət kordur”. Böyük maarifçinin fikirlərində böyük həqiqət var. Çünki XXI yüzillik ölkəmizin ictimai-siyasi həyatında baş verən dəyişikliklər, cəmiyyətin bir quruluşdan digər quruluşa keçməsi yeni düşüncə tərzinə malik insanın yetişdirilməsində mühüm rol oynayan ananın timsalında ailənin savadlı olmasına, davamlı olaraq öz üzərlərində işləməsinə, maariflöndirmə xarakteri daşıyan proqramlarda iştirak etməsinə ehtiyacı yaradır. Dünyada bu istiqamətdə müəyyən təcrübələr var. Məsələn, tanınmış pedaqoqların, alimlərin fəal iştirak etdiyi daimi fəaliyyət göstərən valideyn universitetləri, birliklər, təşəbbüs qrupları, klublar, “dəyirmi masa”lar var ki, valideynlərdə gələcəyin əvəzedilməz potensialı olan bugünkü uşağın tərbiyəsində yeni yanaşmanı, düşüncəni formalaşdırır. Qərb, Avropa və Rusiya məktəblərində geniş yayılmış formalardan biri də ictimai fəal məktəblərin olmasıdır.

⇨Ardı səh.5

# Uğurun sinonimi

Söhbət Britaniya təhsilindən düşdüsə, gərək ənənələrdən başlayasan. Ötən sayımızda Dumanlı Albionun ən qədim iki kollecindən biri olan İton barədə məlumat vermişdik. Budəfəki mövzumuz Herroudur. Britaniyada bu iki kollec qədər ənənələrə söykənən, yaşayış və təhsil sistemini qoruyan məktəblər bəlkə də yoxdur. Zarafat deyil - biri XV, digəri isə XVI əsrdə yaradılıb. Müasir yeniliklər öz yerində, ancaq orta əsrlərdən gələn zadəganlıq, özünəməxsusluq və fərqlilik bu məktəblərin elə bil divarlarına hopub...

Londondan yarımsaatlıq yolda yerləşən Herrounu dünyanın təhsil mərkəzlərində tanımayan yoxdur. Burada hər şey ənənələrə boyun əyir, ancaq məktəbdə heç kim tarixdən gələn ələqələrə kor-koranə riayət etmir. Reqbi və futbol, qılıncoynatma və natiqlik qabiliyyəti, at çapma və xorda oxuma orta əsrlərdən günümüzədək yaxşı tərbiyənin göstəriciləri olub və bu gün də Herrouda yaşadılmaqdadır. Müəllimlər tələbələrə bu məktəbi yüzlərlə məşhur adamın bitirdiyini təkrarlamaqdan yorulmurlar. Axı söhbət sadəcə cəmiyyətin “qaymaqları”ndan getmir, bu şəxslərin əksəriyyətinin tarixdə oynadıqları rolu unutmaq olmaz. Herrounu bitirən dahilər barədə az sonra. Hələlik isə qeyd edək ki, söz açdığımız “yaxşı tərbiyə” yuxarıdakılarla bitmir: dərsləri buraxmaq olmaz, dərsdən icazəsiz getmək qadağandır, siqaret çəkmək ağır günahdır. Dünya dəyişir, Herrou isə Britaniyanın keçmişi ilə gələcəyi arasında körpü rolunu oynamaqda davam edir.

### Orta əsrlərdən kompüter texnologiyalarına

Məktəbin əsası 1572-ci ildə qoyulub. Hər şey onunla başlayır ki, kraliça I Yelizaveta yerli mülkədar Con Layona təhsil ocağının tikilməsi üçün vəsait ayırır. O vaxt məktəbi tikmək indi olduğu kimi bir-iki ilə başa gəlmirdi. Herrou kraliça sifarişi olsa da, müxtəlif çətinliklər ucbatından tikinti işləri düz 1614-cü ilə qədər uzanmışdı. 1615-ci ildə məktəb açılanda onun cəmi bir tələbəsi var idi. Ancaq XIX əsrin əvvəlində kollecin aparıcı müəllimi C.Drurinin sinfində gələcəyin 4 baş naziri təhsil alırdı. Yarım əsr sonra isə digər müəllimlər - Ç.Vohem və H.Blatter o vaxtlar üçün yenilik olan viktorian təhsilinin nailiyyətlərini tətbiq etməklə kollecin həyatında yeni mərhələnin əsasını qoydular.

Şübhə yoxdur ki, heç bir sosial institut yalnız tarixlə “qidalanmaq”la uzağa gedə bilməz. Dünya dəyişirsə, o da dəyişməlidir. Herrou bu gün Britaniya təhsil ənənələrinin beşiyi sayılsa da, rəqəmsal əsrin diqtə etdiyi reallıqlardan yan keçə bilməz.

⇨Ardı səh.8



# “Tələbələr arasında əsl islamşünaslar yetişdirə biləcəyimiz gənclər kifayət qədərdir”

*Ceyhun Məmmədov:* “Dini-ideoloji təbliğatdan özümüzü qorumaq məcburiyyətindəyik”

⇨Ardı səh.4

# Maarifçi Tələbə Kredit Fondunun elan sessiyasının müddəti uzadılıb

Maarifçi Tələbə Kredit Fondunun cari ilin martın 1-də başlayan və aprelin 5-də başa çatmalı olan elan sessiyasının müddəti uzadılıb. Belə ki, mart ayında qeyri-iş günləri nəzərə alınaraq, elan sessiyasının müddəti cari ilin aprelin 20-dək davam edəcək.

Kredit almaq üçün tələbələrin fondun veb-saytından *(www.maarifci.az)* elektron müraciət etmələri kifayətdir. Bu elan sessiyasında təqdim olunacaq təhsil kreditləri 2018-2019-cu tədris ili üzrə təhsil alan, aztəminatlı ailələrdən olan tələbələrin təhsil haqqı borcu üçün nəzərdə tutulub.

Tələbələr üçün müəyyənləşdirilən seçim meyarları olduğu kimi saxlanılıb.

Qeyd edək ki, “Maarifçi Tələbə Kredit” Fondu 2015-ci ildə Təhsil Nazirliyinin təşəbbüsü ilə ölkəmizin aparıcı ali təhsil müəssisələri tərəfindən təsis edilib. Hazırda Fond 10 təsisçi və 4 tərəfdaş universitetlə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində universitetlər tərəfindən təqdim edilən tələbə krediti yerlərinin sayına əsasən seçim meyarlarına uyğun gələn tələbələrlə ümumilikdə 223 təhsil haqqı krediti müqaviləsi imzalanıb.

# Mühəndislik və robot texnikası olimpiadası keçiriləcək

Aprelin 6-da Təhsil Nazirliyi, ADA Universiteti və “Mars Academy” şirkətinin birgə təşkilatçılığı ilə “First Lego League (FLL) Azerbaijan” mühəndislik və robot texnikası olimpiadası təşkil olunacaq.

Danimarkanın “Lego Education” və ABŞ-ın “First” təşkilatının ortaq layihəsi olan FLL 1998-ci ildən etibarən uşaqların elm və texnologiyaya maraqlarını artırmaq və real problemlərin həllinə öz töhfələrini vermək məqsədi ilə təşkil olunan turnirdir. Hər il dünyanın 98 ölkəsindən 300 mindən çox məktəblinin cəlb olunduğu turnirə Azərbaycan ilk dəfə 2017-ci ildə qoşulub. Yerli turnirdə qalib gələn komanda Azərbaycanı Estoniyada keçirilən beynəlxalq yarışda təmsil edib.

Cari ildə keçiriləcək yerli turnir çərçivəsində 10-16 yaşlı məktəblilərdən ibarət 30 komanda “Əsas dəyərlər”, “Robot dizaynı”, “Layihə təqdimatı” və “Robot oyunu” adlı 4 kateqoriya üzrə bilik və bacarıqlarını nümayiş etdirəcək. Qalib gələn iki komanda 22-25 may tarixlərində Türkiyənin İzmir şəhərində təşkil olunacaq FLL Türkiyə Açıq Beynəlxalq Çempionatında iştirak hüququ qazanacaq.

Qeyd edək ki, son illərdə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi istiqamətində məktəblərdə təhsil robotlarının tədrisə inteqrasiyasına xüsusi diqqət yetirilir. Belə ki, Təhsil Nazirliyi tərəfindən son iki ildə 20 ümumtəhsil müəssisəsi təhsil robotları ilə təmin olunub. Məktəblərin informatika otaqlarına xüsusi olaraq “Lego Education” təhsil həllərinə uyğun tərtibat verilib, məktəb müəllimləri xüsusi sertifikatı olan xarici mütəxəssislər tərəfindən təlimlərdən keçirilib və şagirdlər beynəlxalq robot texnikası yarışlarına cəlb olunublar.

## RƏSMİ XRONİKA



- Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. Dövlət başçısı müşavirədə çıxış edib.
- Martın 28-də ölkə başçısı İlham Əliyev Bakı şəhərinin Nizami rayonu ərazisində “Diqlas” ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması haqqında sərəncam imzalayıb.
- Martın 28-də Prezident İlham Əliyev Şəmsəddin Hüseynqulu oğlu Xanbabayevin 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev martın 28-də Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Martın 27-də Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının orden və medallarla təltif edilməsi, bir qrup hərbi qulluqçuya ali hərbi rütbələrin, Orxan Sedyar oğlu Sultanova general-leytenant ali hərbi rütbəsinin, Tahirə Ənvər qızı Cəfərovaya “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında sərəncamlar imzalayıb.
- Dövlət başçısı İlham Əliyev martın 27-də Lənkəran rayonunun Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Martın 27-də ölkə başçısı İlham Əliyev Azər Abdulla oğlu Mustafazadənin 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev martın 27-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə ölkəsində baş vermiş təbii fəlakət nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan “Bakmil” stansiyasında yaradılan şəraitlə tanış olub.
- Martın 23-də dövlət başçısı İlham Əliyev İraq Respublikasının Prezidenti Bərham Salehə Dəclə çayında bərənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.

## “Azərbaycan dili-milli varlığımızdır”

### Müsabiqə qalibləri bəlli olub



Məktəblilər arasında “Azərbaycan dili-milli varlığımızdır” adlı şeir müsabiqəsinin şəhər mərhələsinin qalibləri müəyyənləşib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən təşkil olunmuş müsabiqənin şəhər mərhələsində 36 şagird iştirak edib.

VI-XI sinif şagirdləri arasında təşkil olunmuş müsabiqənin nəticələrinə əsasən, 158 nömrəli tam orta məktəbin şagirdi Əzizəxanım Kazımova I, 287 nömrəli “Zəkalar” liseyinin şagirdi Əbülfəz Rzazadə II, 173 nömrəli tam orta məktəbin şagirdi Rəşad Rza isə III yerləri tutublar. Bundan əlavə, 165 nömrəli tam orta məktəbin şagirdi İnci Mikayıllı, 114 nömrəli tam orta məktəbin şagirdi Kənan Qayxıyev, 251 nömrəli tam orta məktəbin şagirdi Cəmilə Muradova, 322 nömrəli tam orta məktəbin şagirdi Aydan Vəkilova, 250 nömrəli tam orta məktəbin şagirdi Duyğu Həşimli, 17 nömrəli tam orta məktəbin şagirdi Leyla Hümbətova, 47 nömrəli tam orta məktəbin şagirdi Nigar Şirinova, 58 nömrəli tam orta məktəbin şagirdi Səma Əsədzadə, 234 nömrəli tam orta məktəbin şagirdi Fidan Ağayeva, 160 nömrəli Klassik gimnaziyanın şagirdi Nərgiz Məmmədli, 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin (UGİM) dərnək üzvü Rövşanə Mirzəyeva və 7 nömrəli UGİM-in dərnək üzvü İbrahim Şirinov isə həvəsləndirici yerlərə layiq görülüb.

Müsabiqədə seçilmiş şeirin mövzuya uyğunluğu, məzmuna uyğun jest və mimikalardan, səs tonundan, intonasiyadan məqsədyönlü istifadə edilməsi, nitqin aydınlığı, səlisliyi, ifadəliliyi, düzgünlüyü və ifa üçün ayrılmış vaxta riayət edilməsi meyarları əsas götürülüb.

Qaliblər BŞTİ tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaq.

Qeyd edək ki, müsabiqə Azərbaycan dilinin tarixi barədə məktəblilərin əldə etdikləri bilikləri təkmilləşdirmək, onlarda doğma dilimizə sevgi və hörmət hissini daha da artırmaq, nitq mədəniyyətini formalaşdırmaq və istedadlı şagirdləri aşkara çıxarıb rəğbətləndirmək məqsədilə keçirilir.

## Tədbirlər Planının təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

“Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2019-cu il tarixli 897 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri (idarələri), ali, orta ixtisas və peşə təhsili müəssisələri, Təhsil Nazirliyinin tabeliyindəki ümumi təhsil müəssisələrinin rəhbərləri Tədbirlər Planının yerinə yetirilməsini təmin etsinlər və görülmüş işlər barədə 20 dekabr 2019-cu il tarixinədək Təhsil Nazirliyinin aparatına hesabat təqdim etsinlər.

**3.** Nazirliyin aidiyyəti struktur bölmə rəhbərləri Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin iş planlarına daxil edilməsini, onların icrasına nəzarəti, təhsil müəssisələrinə təşkilati köməklik göstərilməsini və daxil olmuş hesabatların ümumiləşdirilib rəhbərliyə təqdim olunmasını təmin etsinlər.

**4.** İnformasiya şöbəsi (Elnur Məmmədov) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb aidiyyəti struktur bölmələrə, yerli təhsili idarəetmə orqanlarına, ali, orta ixtisas və peşə təhsili müəssisələrinə çatdırılmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini, “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və keçiriləcək tədbirlərin KİV-lərdə işıqlandırılmasını təmin etsin.

**5.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*15 mart 2019-cu il*

*Azərbaycan Respublikası təhsil nazirinin 15 mart tarixli F-136 nömrəli əmri ilə təsdiq edilmişdir*

### “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 yanvar 2019-cu il tarixli 897 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyinin Tədbirlər Planı

| | | | |
|---|---|---|---|
| 1. | “Görkəmli ədib, dramaturq və publisist Cəlil Məmmədquluzadənin ədəbi-ictimai irsi müasir müstəvidə”, “Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” ədəbi məktəbinin və tənqidi realizmin banisi kimi”, “Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq”, “Molla Nəsrəddin” ədəbi məktəbində dil məsələləri”, “Cəhalət və savadsızlığın ifşasında “Molla Nəsrəddin” karikaturalarının rolu” mövzularında elmi konfransların keçirilməsi, konfranslar çərçivəsində ədibin həyat və yaradıcılığının, Cəlil Məmmədquluzadənin əsərlərinin səhnə taleyini əks etdirən fotosərgilərin təşkili | Ali və orta ixtisas təhsili müəssisələri | 2019-cu il |
| 2. | Cəlil Məmmədquluzadənin 150 illik yubileyi ilə bağlı aparılan elmi tədqiqatların nəticələrinin ali təhsil müəssisələrinin saytlarında yerləşdirilməsi və elmi jurnallarda dərc edilməsi | Ali təhsil müəssisələri | 2019-cu il |
| 3. | Ümumtəhsil məktəblərində X-XI sinif şagirdlərinin iştirakı ilə “Cəlil Məmmədquluzadənin əsərlərində dini fanatizmin tənqidi” mövzusunda inşa müsabiqəsinin keçirilməsi | Rayon (şəhər) təhsil şöbələri, ümumi təhsil müəssisələri | 2019-cu il |
| 4. | Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə həsr olunmuş seminarların, “dəyirmi masa”ların keçirilməsi, məktəb kitabxanalarında seçmə yolla Cəlil Məmmədquluzadənin dram əsərləri və hekayələrinin oxusu və müzakirəsinin təşkili | Rayon (şəhər) təhsil şöbələri, ümumi təhsil müəssisələri, ilk peşə-ixtisas təhsil müəssisələri, məktəbdənkənar təhsil müəssisələri | 2019-cu il |
| 5. | Cəlil Məmmədquluzadənin 150 illik yubileyi ilə bağlı məqalələrin Respublika KİV-lərində dərc olunması, televiziya proqramlarında Cəlil Məmmədquluzadəyə həsr olunmuş verilişlərin təşkili | Ali təhsil müəssisələri | 2019-cu il |

## “Sabahın alimləri” VIII Respublika Müsabiqəsinin yekunları haqqında

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası təhsil nazirinin 2018-ci il 26 oktyabr tarixli F-729 nömrəli əmrinə əsasən, 2019-cu il 12-14 fevral tarixlərində Bakı şəhərində “Sabahın alimləri” VIII Respublika Müsabiqəsi keçirilmişdir. Müsabiqə İntel İSEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil olunmuşdur. Müsabiqənin təşkilatçıları Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi olmuş, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən müsabiqəyə elmi dəstək verilmişdir. Bu tədbirdə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Bakı, Sumqayıt, Gəncə, Ağdaş, Şəki, Mingəçevir, Şirvan, Lənkəran, Cəlilabad, Balakən, İsmayıllı, Qax, Xaçmaz və Ucarda yerləşən ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri iştirak etmişlər.

Müsabiqədə iştirak etmək istəyən şagirdlərin qeydiyyatı on-line həyata keçirilmişdir. Elektron qeydiyyatdan keçirilmiş 225 layihədən müsabiqədə 187 layihə ilə 311 şagird iştirak etmişdir. Bu layihələrdən 63-ü fərdi, 124-ü isə kollektiv işlənilmiş layihələr olmuşdur.

Layihələrin qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə alimlərdən ibarət Münsiflər heyəti yaradılmışdır. Qiymətləndirmə 8 kateqoriya (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə həyata keçirilmişdir. Münsiflər heyətinin qərarına görə müxtəlif kateqoriyalar üzrə I, II və III yerlərə 50 layihə üzrə 84 şagird, o cümlədən I yerə 8 layihə üzrə 14 şagird, II yerə 17 layihə üzrə 28 şagird, III yerə 25 layihə üzrə 42 şagird layiq görülmüşdür. Qaliblər sırasından İntel İSEF-də iştirak etmək üçün 5 layihə (8 şagird) seçilmişdir.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal və hədiyyələr təqdim edilmiş, yer tutmayan finalçılara isə müsabiqənin sertifikatları verilmişdir.

Müsabiqə çərçivəsində şagirdlərin elmi rəhbərləri üçün Təlim Akademiyası, məktəblilər, müəllimlər və media nümayəndələri üçün “açıq qapı” saatları təşkil edilmişdir.

Qeyd olunanları nəzərə alaraq və “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2019-cu il 12-14 fevral tarixlərində “Sabahın alimləri” VIII Respublika Müsabiqəsinin Münsiflər heyəti tərəfindən seçilən qaliblərinin siyahısı təsdiq edilsin (əlavə 1).

**2.** Təşkilatçıların 2019-cu il 4 fevral tarixli birgə qərarına uyğun olaraq qaliblərə (əlavə 1), qalib şagirdlərin rəhbərlərinə (əlavə 2) nəzərdə tutulmuş pul mükafatları, Münsiflər heyətinin üzvlərinə (əlavə 3), Elmi Ekspertiza Komitəsinin üzvlərinə (əlavə 4) isə qonorar verilsin.

**3.** 2019-cu ilin may ayında ABŞ-ın Arizona ştatının Finiks şəhərində keçiriləcək İntel İSEF-də iştirak etmək üçün seçilmiş şagirdlərin siyahısı təsdiq edilsin (əlavə 5).

**4.** Nəzərə alınsın ki, ABŞ-a gedəcək şagirdlərin yol xərcləri İntel Fondu tərəfindən ayrılan qrant hesabına və bir qismi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müsabiqə üçün nəzərdə tutulmuş xərclər hesabına ödəniləcəkdir.

**5.** Aparat rəhbərinin müavini, “Sabahın alimləri” VIII Respublika müsabiqəsinin direktoru Y.Piriyevə tapşırılsın:

5.1. İntel İSEF-də iştirak edəcək şagirdlərin layihələrinin ingilis dilində hazırlanmasına nəzarət etsin;

5.2. Şagirdləri ABŞ-da müşayiət edəcək nümayəndə heyətinin tərkibi barədə təkliflərini Nazirliyin rəhbərliyinə 10 gün ərzində təqdim etsin;

5.3. İntel İSEF-in Təşkilat Komitəsinə müvafiq məlumatların göndərilməsini təmin etsin.

**6.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini M.Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*19 mart 2019-cu il*

## 31 mart azərbaycanlıların soyqırımı



# Vətənə məhəbbət, düşmənə nifrət

## Şagirdlər vətənpərvərlik ruhunda tərbiyə olunur

**Ofeliya MƏMMƏDOVA,**
*filologiya üzrə fəlsəfə doktoru, "Evrika" liseyinin direktoru*

Hər il martın 31-i ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Azərbaycanlıların soyqırımı 200 il ermənilər tərəfindən azərbaycanlılara qarşı aparılan qəddar bir siyasətdir. Bu siyasətin qurbanlarının xatirəsini yad etmək hər bir azərbaycanlının bilavasitə vətəndaşlıq borcudur. Bu barədə danışarkən öncə onu qeyd etmək istərdim ki, ermənilərin azərbaycanlılara qarşı iki əsr davam edən soyqırım siyasəti, düşünülmüş şəkildə genişmiqyaslı qanlı aksiya nəticəsində yüzlərlə yaşayış məntəqəsi yerlə-yeksan edilib, minlərlə azərbaycanlı böyük qəddarlıqla qətlə yetirilməklə müşayiət edilmişdir. Soyqırımı siyasətini həyata keçirmək məqsədilə IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər "Böyük Ermənistan" yaratmaq üçün Rusiyanın imperiya siyasətindən alət kimi istifadə etmişlər. Azərbaycan xalqının XIX-XX əsrlərdə başına gətirilən bütün faciələr, torpaqlarımızın zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirilən soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Xalqımız müstəqillik qazandıqdan sonra tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edib. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan hadisələr açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

### Əsrin əvvəllərində soyqırımlar

Xalqımıza qarşı aparılmış soyqırımı barədə liseyimizdə də humanitar fənlərin tədrisi zamanı şagirdlərə çatdırılır, bu yolla onlarda tarixi düşmənlərimiz olan erməni qəsbkarlarına nifrət, eyni zamanda Vətənə, xalqımıza məhəbbət hissi aşılanır. Bu isə şagirdlərdə vətənpərvərlik hisslərinin tərbiyə edilməsində çox böyük rol oynayır.

Direktor kimi tez-tez müxtəlif humanitar fənn - tarix, dil-ədəbiyyat və s. müəllimlərinin dərslərində oluram. Bu zaman onların xalqımızın tarixində mühüm rol oynamış hadisələri - 1905-1906-cı, habelə 1918-ci illərdə xalqımızın başına gətirilən faciələri necə tədris etmələrini izləyirəm. IX siniflərdə "Azərbaycan tarixi" fənninin "Azərbaycanlı əhaliyə qarşı ermənilərin törətdikləri qırğınlar. Milli - demokratik hərəkat" mövzusunun tədrisində müəllim göstərir ki, əsrin əvvəllərində xalqımızın milli oyanışı çarizmi bərk qorxuya saldı. Ona görə də xalqımızı inqilabi fəaliyyətdən uzaqlaşdırmaq üçün fitnəkarlıqla türk -müsəlman əhaliyə qarşı qırğın törətmək qərarı verildi və bu mənfur işdə ermənilərdən bir alət kimi istifadə edildi. İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan etdilər. Statistik məlumatlara əsasən demək olar ki, 1905-1907-ci illərdə baş verən hadisələrdən sonra azərbaycanlılara qarşı kütləvi repressiyalar gizli şəkildə aparıldı. 1916-cı ilin məlumatları göstərir ki, 1831-ci illə müqayisədə həmin il İrəvan quberniyasının 5 əyalətində əhalinin sayı 40 dəfə artaraq 14 min 300-dən 570 min nəfərədək yüksəlmişdir. Ancaq həmin zaman kəsiyində azərbaycanlıların sayı cəmi 4,6 faiz artaraq 246 min 600 nəfər təşkil edib. Yaxud başqa bir nümunə, əgər 1886-1897-ci illərdə əhalinin mütləq artımı 40 min nəfər olubsa, 1905-1916-cı illərdə bu rəqəm cəmi 17 min nəfər olub. Halbuki hələ 1905-ci ildə 1886-cı illə müqayisədə əhalinin sayı 61 min nəfər çox olub. Bu rəqəmlər çar Rusiyasının idarəçiliyi dövründə erməni millətçilərinin şovinist siyasətini həyata keçirməsindən, "Türksüz Ermənistan" planının reallaşdırılması istiqamətində azərbaycanlıların qovulmasından xəbər verirdi. Şübhəsiz ki, tarix dərslərində şagirdlərimizə belə məlumatların çatdırılması, izahı çox böyük rol oynayır. Qeyd etməliyəm ki, belə məsələlər digər humanitar fənlərdə - dil -ədəbiyyat, eləcə də rus dili -ədəbiyyatı dərslərində sinif saatlarında şagirdlərə çatdırılır.

### 1918-ci il soyqırımları

Birinci Dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından sonra öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd edirlər. Məktəbimizin dərslərində oturduğum tarix müəllimləri IX siniflərdə "Azərbaycan tarixi" fənnindən "Şimali Azərbaycanda türk - müsəlman əhaliyə qarşı erməni qırğınları" mövzusunu tədris edərkən göstərirlər ki, 1918-ci ilin ilk aylarında Cənubi Qafqaz Komissarlığı və Seymin hakimiyyətinə tabe olmayan yeganə şəhər Bakı idi. Bakı Fəhlə Deputatları Sovetinin bolşevik rəhbərliyi 1917-ci il oktyabrın 31-də Bakıda Sovet hakimiyyətinin qurulduğunu elan etmişdi. Bakı Soveti əksinqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşdırılmasına başlayır. 1918-ci ilin mart-aprel aylarında isə qanlı hadisələr zirvə nöqtəsinə çatır. O aylarda ermənilər tərəfindən törədilən cinayətlər Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuşdur. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarlıq abidələri, məktəblər, xəstəxanalar, məscidlər və digər tikililər dağıdılırdı. Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata keçirilmişdir. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüş, Şamaxıda 58 kənd dağıdılmış, 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə-yeksan olunmuş; əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilmişdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində ("Aşxadavor" ("Əməkçi") qəzeti, 2 noyabr 1919-cu il) göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür.

Müəllim daha sonra şagirdlərə bildirir ki, 28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması da qurbansız ötüşməmişdir. Burada müəllim ADR-in Nazirlər Sovetinin sədri F.X.Xoyskinin xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubu şagirdlərə oxuyur: "Ermənilərlə biz bütün mübahisələrə son qoymuşuq. Onlar ultimatumu qəbul edib müharibə ilə qurtaracaqlar. Biz ermənilərə İrəvanı güzəştə getdik. Cənubi Qafqazda 3 suveren respublikanın yaranması və müttəfiqlərin köməyi ilə Ermənistan ərazisi 1 milyon 510 min nəfər əhali ilə (795 min erməni, 575 min müsəlman, 140 min digər xalqlar) 17 min 500 ingilis kvadrat mili həcmində olur. Bununla kifayətlənməyən ermənilər heç bir şeyə məhəl qoymadan "Böyük Ermənistan" ideyası ətrafında Gürcüstanın tərkibində olan Axalkalaki, Borçalı, Azərbaycanın Qarabağ, Naxçıvan, Gəncə quberniyasının cənub hissəsinə iddia irəli sürürlər.

Qeyd edim ki, liseyimizin dil-ədəbiyyat, eləcə də rus dili və ədəbiyyat müəllimləri də müvafiq mövzuların tədrisində, eləcə də sinif saatlarında şagirdlərə bu məsələlər haqqında kifayət qədər ətraflı məlumat verir, bu yolla onlarda vətənpərvərlik hisslərinin yaranmasına nail olurlar.

### Əsrin ortalarında və sonunda soyqırımlar

1948-1953-cü illər Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla azərbaycanlıların daimi yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını, eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazilərini böyütməkdə davam etdirirdilər. 1943-cü ildə Tehranda keçirilən konfransda ermənilər İranda yaşayan ermənilərin Sovetlər Birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri Molotova müraciət edirlər. Bu məsələdə Stalinin razılıq verməsi faktiki olaraq azərbaycanlıların 1948-1953-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiya olunmasının əsasını qoydu.

Tarix müəllimlərimiz IX siniflərdə "Azərbaycan tarixi" dərslərində "Azərbaycan SSR müharibədən sonrakı onillikdə" mövzusunu tədris edərkən şagirdlərə bildirirlər ki, ermənilər burada yaşayan azərbaycanlıları deportasiya etmək üçün SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına əsasən 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular. Məlumdur ki, ermənilərin bu siyasəti sonrakı dövrlərdə də davam etdirildi. Ona görə də heç də təsadüfi deyildir ki, yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhvali-ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. 1945-ci ildə sınaqdan çıxarılmış guya Ermənistanla Qarabağın iqtisadi cəhətdən bir-birinə bağlı olması barədə əsassız iddialarla erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. 1988-ci ildən başlayaraq kütləvi hədə-qorxular, fiziki güc, ölüm, kəndlərin talan edilməsi, yandırılması həyata keçirildi. Quqarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürüldü, onların 21-i qadın, 6-sı uşaq idi. Vardenis rayonunda isə 40 nəfər öldürüldü. Ermənistanın digər rayonlarından - Yerevan, Masis, Kalinino, Kadjaran, Qafan, Kirovakan, Qoris, Sisian, Amasiya və Alaverdidən 250 min azərbaycanlı öz ev-eşiyindən qovuldu. 1905-1920-ci illərin tarixi yenidən təkrar olundu - qadın və uşaqlar, yaşlılar qarlı dağlar aşaraq, dona-dona, itkilər verə-verə öz xilaslarını Azərbaycanda axtardılar. 1948-53-cü illərin tarixi təkrar olundu - İttifaqın mərkəzi hakimiyyətinin qərarları ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmədi, onlar özlərinə çadır şəhərciklərində sığınacaq tapırdı. 1991-ci il avqustun 8-də sonuncu Azərbaycan kəndi Nüvədidən (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib) əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrildi. "Türksüz Ermənistan" kimi daşnak ideyası reallaşdı.

1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 milyona qədər adam doğma yurdundan didərgin düşdü. Deməliyəm ki, dərslərində oturduğum müəllimlərin bütün yuxarıda göstərilən hadisələrin müasir dövrlə əlaqələndirmələrinə xüsusilə diqqət yetirir və bunu onlardan həmişə tələb edirəm.

### Xocalı soyqırımı

Tarix müəllimləri IX siniflərdə "Dövlət müstəqilliyinin bərpası" mövzusunun tədrisi zamanı ermənilərin Xocalıya hücumu, bu zaman törətdikləri vəhşilikləri şagirdlərə çatdırırlar. Belə ki, tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə hələ də dəqiq olmayan məlumatlara görə, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Onlardan ancaq 335 nəfərinin meyitini dəfn etmək mümkün olub. 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150 nəfərinin taleyi bu gün də məlum deyil.

### Soyqırım hadisələrinə siyasi qiymət

Dərslərində oturduğum tarix müəllimləri şagirdlərə bildirirlər ki, bütün yuxarıdakı faktlardan göründüyü kimi ermənilər öz şovinist məqsədlərinə çatmaq üçün beynəlxalq hüquq normalarına məhəl qoymadan bütün mümkün vasitə və metodlardan istifadə etmişlər. Lakin bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan olunub. 2003-cü ildən isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Azərbaycan xalqına müraciəti sistematik xarakter daşıyıb. Burada müəllimlərimiz şagirdlərimizə onu da bildirirlər ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın, eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın beynəlxalq aləmdə keçirmiş olduqları ikitərəfli və çoxtərəfli görüşlərin, habelə müxtəlif tədbirlərin erməni faşistlərinin xalqımızın başına gətirdikləri müsibətlərin dünya miqyasında tanınmasında ölçüyəgəlməz dərəcədə böyük rolu olmuşdur.

### Azərbaycanlıların Soyqırımı Günü xarici ölkələrdə

**Hollandiyada.** Dərslərində oturduğum tarix müəllimlərinin soyqırımı hadisəsinin xarici ölkələrdə qeyd edilməsi haqqında məlumatların şagirdlərə çatdırılmasına xüsusilə diqqət yetirirəm. Onlar şagirdlərə bildirirlər ki, Azərbaycan dövlətinin Xocalı faciəsinin soyqırımı faktı kimi beynəlxalq aləmdə tanıdılması istiqamətindəki fəaliyyəti nəticəsində getdikcə daha çox ölkədə Xocalı soyqırımı ilə bağlı etiraz tədbirləri keçirilir. Məsələn, Niderland krallığında fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresinin və onun nəzdindəki Azərbaycan-Hollandiya Həmrəylik Cəmiyyətinin təşəbbüsü ilə Rotterdam şəhərində 31 mart-Azərbaycanlıların soyqırımı günü ilə bağlı 2009-cu ildən etibarən hər il mart ayında etiraz aksiyası keçirilir.

Tədbirə Azərbaycan və türk icmalarının, habelə Polşa və s. ölkələrin diasporlarının nümayəndələri qatılırlar. Aksiyada iştirak etmiş gənclər ön hissəsində Azərbaycanın xəritəsinin və işğal olunmuş ərazilərimizin, arxa hissəsində isə soyqırım qurbanlarının sayının göstərildiyi ağ köynəklər geyinib, başlarına mavi papaq qoyurlar. Etiraz aksiyasına toplaşanlar holland dilində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı pisləyən şüarlar səsləndirirlər. Həmin gün azərbaycanlılara qarşı törədilmiş soyqırım barədə ətraflı məlumatın əks olunduğu holland dilində hazırlanmış 10 minə yaxın vərəqə yerli sakinlər arasında paylanılır.

**Türkiyədə.** Şagirdlərə o da bildirilir ki, Türkiyənin İzmir şəhərinin mərkəzi Konak Meydanında 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar 2009-cu ildən etibarən etiraz aksiyaları keçirilir. Aksiya Türkiyədə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Evi və Həmrəylik Cəmiyyəti, İzmir universitetlərində təhsil alan azərbaycanlı tələbələr tərəfindən təşkil olunub. Aksiyada 31 mart soyqırımını əks etdirən fotoşəkillər nümayiş etdirilir və broşürlər paylanır. Aksiyanın sonunda bir qayda olaraq müvafiq bəyanat qəbul edilir.

31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası da bəyanat yaymışdır. Bəyanat müəllifləri 31 mart soyqırımını törədənlər, onlara dəstək verənlər və tarixi saxtalaşdırıb ikili standartlardan çıxış edən erməni diasporunun yalanlarına alət olanları nifrətlə qınadıqlarını bildiriblər.

**ABŞ-da.** Nevada ştatının qubernatoru Cim Qibbons 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar ştat ərazisində matəm elan etmişdir. Qubernator Amerika Azərbaycanlıları Şəbəkəsi (USAN) vasitəsilə ona ünvanlanan onlarla məktuba cavab olaraq tariximizin qanlı səhifəsinə həsr olunan bəyanat yayıb. USAN-nın icraçı direktoru Adil Bağırovun verdiyi məlumata görə, adıçəkilən bəyanatın ərsəyə gəlməsində təşkilatın Nevada ştatı üzrə fəalı Bob Güneyin böyük xidməti olub. Bəyanatda ermənilərin 1918-ci ilin mart ayında Bakı və Azərbaycanın digər şəhərlərində on minlərlə mülki azərbaycanlının qətlə yetirilməsi ilə bağlı başsağlığı verilir. Qubernator məktubunda həmçinin qeyd edib ki, onun ölkəsi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və rəsmi Vaşinqton Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz ərazisi sayır.

Şagirdlərə bildirilir ki, bundan əvvəl ABŞ-da bir çox qubernator və şəhər meri 28 may - Respublika Günü, 18 Oktyabr - Milli Müstəqillik Günü münasibəti ilə bu ölkədə yaşayan azərbaycanlılara təbrik məktubları yollamışlar. Həmin məktublarda Azərbaycanın ərazi bütövlüyü tanınır və Ermənistanın işğalçı dövlət olduğu qeyd olunur. USAN həmçinin Amerika kitabxanalarına Azərbaycan həqiqətləri haqqında bir çox akademik kitablar yollamışdır.

Şübhəsiz ki, bütün yuxarıda göstərilənlər nəticə etibarı ilə həm tarix, həm də digər humanitar fənlər - dil-ədəbiyyat, habelə rus dili - ədəbiyyatı dərslərində şagirdlərimizdə erməni daşnaklarının xalqımızın başına gətirdikləri faciələr haqqında ətraflı, doğru - düzgün təsəvvür yaradır, onlarda VƏTƏNPƏRVƏRLİK hisslərini gücləndirməklə düşmənə qarşı nifrət hissi aşılanır.

# “Tələbələr arasında əsl islamşünaslar yetişdirə biləcəyimiz gənclər kifayət qədərdir”



## *Ceyhun Məmmədov:* “Dini-ideoloji təbliğatdan özümüzü qorumaq məcburiyyətindəyik”

**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycanda ən gənc institutun - Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının bir ili tamam oldu. Müstəqil Azərbaycanda daha bir ali məktəb rəqabətə davamlı təhsil müəssisələrinin sırasına qoşulmaq uğrunda gedən mübarizəyə qatıldı. Yeni olmasına baxmayaraq, Azərbaycan İlahiyyat İnstitutunun tam sürətlə irəliləməsi üçün bütün imkanlar yaradılıb. İnstitutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində rəhbərlik etdiyi təhsil müəssisəsinin yaxın gələcəyə dair planlarından, reallaşması o qədər də uzaq olmayan hədəflərindən danışıb.

- *Belə bir institutun yaradılması hansı zərurətdən irəli gəlirdi?*

- İnstitutun yaradılması zərurəti, ilk növbədə, ölkədə tarixən mövcud olan yüksək mənəvi mühitin qorunması ehtiyacından doğdu. Başqa bir zərurət isə dini təhlükəsizliklə bağlıdır. İnsanlara müxtəlif məqsədlərlə təsir etmək üçün məhz dindən istifadə sıx müşahidə olunan hallardandır. Ona görə də hər bir ölkənin qarşısında duran bir neçə vacib vəzifədən biri məhz dini təhlükəsizliyin təmin olunmasıdır. Azərbaycan da dünya ölkələri arasında öz nüfuzu, mövqeyi, maraqları olan dövlətdir və ona təsir göstərmək üçün bir çox vasitələrdən, o cümlədən dindən istifadə edilməsi gözləniləndir. Dövlət olaraq Azərbaycanda bu ehtimal nəzərə alınmalı, ölkənin dini təhlükəsizliyi təmin edilməlidir. Bu, zərurətdir. Başqa bir zərurət isə bu sahədə ehtiyac duyulan kadr hazırlığı ilə bağlıdır. Zaman-zaman müşahidə olunan dini təsirlərin qarşısının alınması üçün ölkədə mütəxəssislərin yetişdirilməsinə ehtiyac açıq görünürdü. Müasir dövrdə din dünyada elmin bir sahəsi kimi araşdırılır, öyrənilir. Dinə elmi yanaşma, dinin elmi baxımdan öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə çoxlu sayda məscid, kilsə, sinaqoq var. Onların dini mütəxəssislərlə təminatına ehtiyac var. İndiyədək bu sahədə kadr hazırlığı kiçik miqyaslı, pərakəndə təşkil edilib. Müxtəlif təhsil müəssisələrində dinlə bağlı müəyyən ixtisaslar tədris olunur. Həmin ixtisasları tədris edəcək kadrlar da hazırlanmalıdır. Hüquq-mühafizə də daxil olmaqla, dövlət orqanlarında bu sahənin mütəxəssislərinə xüsusi ehtiyac var.

- *Bir fakültədən böyüyüb instituta çevrildiniz. Ötən bir ildə İlahiyyat İnstitutunun obrazını formalaşdıra bilmisinizmi?*

- Qısa vaxt ərzində institutun formalaşması istiqamətində zəruri tədbirlər həyata keçirildi, tədris ilinə hazırlıq görüldü. Artıq 2018-2019-cu tədris ilinin birinci yarımili yekunlaşıb. Beynəlxalq standartlara uyğun və dövlətin perspektiv tələbləri əsasında təhsilin səviyyəsini təmin etməyə çalışırıq və düşünürəm ki, buna qismən də olsa, nail olmuşuq.

- *İnstitutda mühit necədir?*

- Azad, sərbəst tələbə mühiti var. Bəzən institutumuzla bağlı yanlış təsəvvür olduğunu müşahidə edirik. Qeyd etməliyəm ki, İlahiyyat İnstitutu dünyəvi təhsil müəssisəsidir. Burada tələbələrimiz də daxil olmaqla, hər kəs öz seçimində azaddır. İbadət etmək istəyənlər edir, istəməyənlər yox. Hətta institut fəaliyyətə başladığı ilk aylarda tələbələr arasında tərəddüd açıq hiss olunurdu.

- *Bir gün ərzində Bakı Dövlət Universitetinin tələbəsi dönüb İlahiyyat İnstitutunun tələbəsinə çevrildi. Hər halda tərəddüdlər də bununla əlaqədar idi...*

- Bəli. İlahiyyat İnstitutu yaradılanda Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin tələbələri də bizim struktura daxil oldu. Onlarla səmərəli işin nəticəsidir ki, artıq tərəddüd qalmayıb.

- *İlahiyyat fakültəsinin BDU-da qalan tələbəsi oldumu?*

- Struktur dəyişikliyinin nəticəsi olaraq qalanlar var. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində tərcüməçilik ixtisası üzrə də hazırlıq aparılırdı. Fakültə instituta çevriləndə tərcüməçilik ixtisası üzrə təhsil alan tələbələr Bakı Dövlət Universitetində təhsillərini davam etdirməli oldular.

### BDU-da ödənişli oxuyan 20 tələbə Aİİ-də pulsuz təhsil alır

- *Maraqlıdır, İlahiyyat İnstitutunda davam etməli olan tələbələrin narahatlığına, tərəddüdlərinə necə son qoydunuz?*

- Nizam-intizam, qayda-qanun tənzimləndi, tələbələrə diqqət artırıldı, yeni müəllimlər işə qəbul edildi. Qeyd edim ki, 20-yə yaxın tələbəmiz BDU tələbəsi olaraq ödənişli əsaslarla təhsil alırdı. İlahiyyat İnstitutunda təhsil tam dövlət sifarişi əsasında aparıldığından, həmin tələbələrimiz təhsil haqqından tamamilə azad olundular. Burada tələbələrin sosial qayğıları ilə də mütəmadi maraqlanırıq.

- *Qayğılarını azaltmaq üçün əlinizdən nəsə gəlirmi?*

- Müəyyən qədər. Düzdür, gələcəkdə bu imkanlarımız daha geniş olacaq. İnstitutun yataqxanası, yeni binası tikiləcək. Ancaq ona qədər heç nə eləmədən gözləmirik. Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun xətti ilə 30 tələbəyə təqaüd veririk. Sosial vəziyyəti yaxşı olmayan tələbələrlə xüsusi iş gedir.

- *Sosial vəziyyəti yaxşı olmayan tələbələri necə müəyyənləşdirdiniz?*

- Valideynlərindən birini, yaxud hər ikisini itirdiyinə, ata-anasının işləmədiyinə, sağlamlıq imkanları məhdud şəxsin, ya da şəhid ailəsindən olduğuna dair sənəd tələb edirik. Buna əmin olduğumuz 30 tələbə təqaüdlə təmin edilib. Əyalətlərdən gələn tələbələrimiz var. Onların hər hansı problemi, həkimlə, geyimlə bağlı qayğıları ola bilər. Bunu nəzərə alıb hər tələbəyə maksimum diqqət ayırırıq. Tələbələrimizlə davamlı olaraq ünsiyyət qururuq, fikir mübadiləsi aparırıq; çalışırıq ki, tələbələrimizin nə düşündüklərini müəyyənləşdirək və ona uyğun istiqamət verək. Bunun üçün də qapılarımız hər zaman onlara açıq olur. İstənilən vaxt yaza, zəng edə, rektoru ziyarət edə, sözlərini deyə bilirlər.

### Aİİ tələbə mərkəzli bir müəssisə olacaq

- *Müəllimlərlə tələbələrin münasibətləri necə tənzimlənir?*

- Üzərimizə belə bir missiya götürmüşük. Aİİ-nin tələbə mərkəzli bir müəssisə olmasına çalışırıq. Yəni tələbələrlə daha çox işləyirik. Sadəcə tədrisdə yox, tərbiyəsi, dünyagörüşünün formalaşmasında da fəal rol oynayırıq.

- *Məsələn, bunu necə, hansı yolla edirsiniz?*

- Müxtəlif tədbirlər - seminarlar, konfranslar, “dəyirmi masa”lar həyata keçiririk. Tələbələrimizdə vətənpərvərlik ruhu formalaşdırmağa, hər birinin Vətənə sevgisini, mənəvi dəyərlərimizə bağlılığını gücləndirməyə çalışırıq. Bu məqsədlə bir neçə layihəmiz olub. Bayraq Günü münasibətilə 50 tələbəmizi Cocuq Mərcanlıya apardıq. Kollektiv surətdə qəsəbəyə gedən ilk təhsil müəssisəsi olduq. Tələbələrimiz əhali ilə görüşdü, məsciddə oldular. Qayıtdıqdan sonra tələbələrimizin münasibətində, yanaşmasında xeyli dəyişiklik hiss etdik. Daha sonra Qəbələnin Nic kəndində - Alban kilsəsində, mədəniyyət mərkəzində oldular. Qış imtahan sessiyası yekunlaşdıqdan sonra tələbələrimizin “Qış məktəbi” layihəsi çərçivəsində üç gün Şamaxı rayonunda ölkəmizin tarixi və mədəni irsi ilə tanışlığı təmin edildi. Onlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təmir olunmuş Dəmirçi kənd məscidi və Qafqazın ən qədim dini ocaqlarından biri Şamaxı Cümə məscidini ziyarət etdilər. Eyni zamanda, burada gənclər üçün müxtəlif seminarlar təşkil olundu.

**Dini-ideoloji təbliğatdan zaman-zaman özümüzü qorumaq məcburiyyətindəyik. Bu səbəbdən, bir qədər ehtiyatlı olmağa çalışırıq. Bu məsələdə kor-koranə, araşdırmadan qərar vermək mümkün deyil. Araşdırmaq, başqa universitetlərin təcrübəsini öyrənmək, qarşılıqlı əməkdaşlıqda ən uğurlu variantı seçməyə çalışacağıq.**

- *Bu prosesdə müəllimlərin rolu nə qədərdir? Onlar bu işin tərkib hissəsinə, hərəkətverici qüvvəsinə çevrilə bilirlərmi?*

- Əlbəttə. İnstitutda tələbələrlə iki istiqamətdə iş gedir və müəllimlərə də tapşırılıb ki, onlarla ünsiyyətdə olsunlar. Yəni müəllim sadəcə, dərs deməklə kifayətlənmir. Müəllimlərlə belə bir söhbətimiz də olub: onlar tələbələr arasında ixtisası üzrə fərqlənənləri seçməli, gələcəyə hazırlamalıdırlar. Müəllimlərimizin böyük əksəriyyəti dərsdən əlavə dərslər keçir.

- *Həmin dərslərin mövzusunu kim seçir: müəllim özü, yoxsa tələbələr?*

- Tələbələr də seçə, müəllim də müəyyənləşdirə bilər. Tələbə qavramadığı mövzuda, yaxud daha dərindən mənimsəmək istəyirsə, müəllimlə əlavə olaraq görüşüb dərs ala bilir. Ondan əlavə, burada ingilis, ərəb dili kursları tam ödənişsiz fəaliyyət göstərir. Gələcəkdə başqa dillər üzrə kurslar açmaq barədə də düşünürük. Tələbələrimiz arasında müxtəlif bacarıqları olanlar var; məsələn, rəssamlıq qabiliyyəti yaxşı olan, xəttatlıq bacarığı olan, ebruya həvəs göstərən tələbələrimizi müəyyən etmişik. Bu istiqamətlərdə kurslar açmaq planı üzərində işləyirik.

### “Mütəxəssis çətinliyimiz var”

- *Tələbələrinizin hər cür bacarığından danışdınız, bəs, təhsil aldıqları ixtisas üzrə bacarıqlarından, həvəslərindən danışmadınız. Müasir ilahiyyatçılar bu vəzifəyə hazırdırlarmı?*

- Şansımız ondadır ki, bu tədris ilindən institutumuza gələn tələbələr fərqlənirlər. İxtisası təsadüfən seçən tələbələr olsa da, biz onlarda öz ixtisaslarına maraq yarada bildik. Tələbələr arasında əsl islamşünaslar yetişdirə biləcəyimiz gənclər kifayət qədərdir. Onlar din xadimi kimi fəaliyyət göstərəcəklər. Ona görə də tələbələrimizin din xadimi olmaqda marağı bizim üçün əhəmiyyətlidir.

- *Tərcümə fakültəsinin tələbələri BDU-da qalsa da, İlahiyyat İnstitutunda xeyli dil tədris olunur...*

- Bəli. İnstitutda ingilis, fars, ibri və ərəb dilləri keçilir. İbri dili magistratura səviyyəsində təhsil alan tələbələrə tədris olunur. Gələcəkdə bunu kurslar vasitəsilə öyrətməyi planlaşdırırıq.

- *Mütəxəssis demişkən, neçə müəlliminiz var?*

- Hazırda müəllimlərimizin sayı 25 nəfərdir. Rəhbər heyət də tədris prosesində iştirak edir. Mən Multikulturalizmə giriş fənnini tədris edirəm. Prorektorlar, dekan, dekan müavini - hər biri ayrı-ayrı fənləri tədris edirlər. Rəhbər heyətlə bir yerdə hazırda tədris prosesində 25 müəllim iştirak edir.

- *Təhsildə keyfiyyət müəllimdən başlayır. Müəllimləri necə seçib işə götürdünüz?*

- Müəllimlərimizi müsabiqə yoluyla seçdik. Vakansiyaları elan etdik və müraciətlər əsasında işə qəbulu həyata keçirdik.

- *Şərtləriniz nə idi? Müəllim seçimini hansı parametrlər əsasında gerçəkləşdirdiniz?*

- Bir neçə parametr var. Bunu xüsusi vurğulamaq istəyirəm: müəllimlərlə bağlı mütləq sınaq dərsləri keçiririk. Bir müəllim institutumuzda dərs demək istəyirsə, rəhbər heyət toplaşıb “Açıq dərs” təşkil edirik. Həmin sınaq dərsində müəllim qiymətləndirilir. Xüsusi blanklara qeyd olunur və onun əsasında qərar verilir. İşə qəbulla bağlı sahələrdən asılı olaraq, müxtəlif kriteriyalarımız var. Dil bilikləri, təcrübə tələb edilir. Elə fənlər var ki, orada ən azı 5 il təcrübənin olması əsas tələblərdəndir. Müəyyən sertifikatlar tələb edirik. Əsas şərtlərdən biri olduğu üçün hazırda dərs deyən müəllimlərimizin mütləq əksəriyyəti elmlər namizədi, fəlsəfə doktorudur. Xüsusən ixtisaslarla bağlı sırf elmi dərəcəsi olanları işə götürməyə çalışdıq. Təcrübə, məsuliyyət, çalışdığı qurumlar, komanda ruhunun olması kimi məsələləri nəzərə aldıq. Müəllimlərlə bağlı başqa bir məqamı qeyd edim. İngilis dili müəllimindən uzun müddət təcrübə, sertifikatlar tələb etdik. Tutaq ki, islamla bağlı fənlərdə peşəkarlığı, sertifikatları, kurslarda iştirakı kimi meyarlar nəzərə alındı.

- *Azərbaycanda ali təhsil müəssisələrinin ən böyük problemi keçmişin zərərli vərdişlərini unutdurmaq, qalıqlarını təmizləməkdir. Azərbaycan İlahiyyat İnstitutu sıfırdan başlayan bir ali təhsil müəssisəsi olduğundan müasir təhsilin tələblərini öyrənir və birbaşa tətbiq edir. Hər halda burada yeniliyi qəbul və tətbiq etmək çətinlik yaratmaz...*

- Çalışırıq ki, qısa müddətdə çox iş görək və daha böyük uğurlara imza ataq. Amma görüləcək işlər də çoxdur. Ümumən götürəndə institutda çalışanların böyük əksəriyyəti gənc və peşəkarlardır. Elə sahələr var, orada uzun müddət təcrübə tələb olunur və belə təcrübəli mütəxəssislərimiz də var. Ən önəmlisi, hər biri öz işini sevir. Kollektiv maksimum dərəcədə çalışır ki, etimadı doğrultsun, fəaliyyətini yeni ideyalar üzərində qursun.

### “Tələbələrimiz üçün bütün vasitələr diqqət mərkəzimizdədir”

- *Bəlkə bu günün məsələsi deyil... Gələcəkdə xaricdən müəllimlərin dəvət olunması mümkündürmü?*

- Bu məsələlər də nəzərdən keçirilir. Xaricdən müəllimlərin bir semestr ərzində tədrisə cəlb edilməsi barədə düşünürük. Ancaq burada bir məqam da var ki, din həssas məsələdir. Dini-ideoloji təbliğatdan zaman-zaman özümüzü qorumaq məcburiyyətindəyik. Bu səbəbdən, bir qədər ehtiyatlı olmağa çalışırıq. Bu məsələdə kor-koranə, araşdırmadan qərar vermək mümkün deyil. Araşdırmaq, başqa universitetlərin təcrübəsini öyrənmək, qarşılıqlı əməkdaşlıqda ən uğurlu variantı seçməyə çalışacağıq. Türkiyədə 4 - Ankara, İstanbul, “29 Mayıs” və Mərmərə universitetlərində olduq. Ankara, “29 Mayıs” və Mərmərə universitetləri ilə artıq protokol imzalamışıq. Həmin protokollarda da müəllim mübadiləsi nəzərdə tutulur. Bu sahədə müsəlman ölkələrinin, Avropa universitetlərinin çox böyük təcrübəsi var. Həmin universitetlərlə də işləməyi nəzərdən keçiririk. Araşdıraraq müəllim və tələbə mübadiləsi apara biləcəyimiz ali təhsil müəssisələrinə qərar verəcəyik. Ümumiyyətlə isə birgə tədbirlər, konfranslar keçirəcək, təhsilin keyfiyyətini artırmaq üçün maksimum çalışacağıq. Tələbələrimizin də xarici təcrübəni öyrənmələrinə çox böyük ehtiyac var. Həm Avropa ölkələrinin, həm də müsəlman ölkələrinin magistratura və doktorantura üzrə təqaüd proqramlarını nəzərdən keçiririk. Tələbələrimizin biliyinin, savadının və dünyagörüşünün artırılması məqsədinə xidmət edən bütün vasitələr diqqət mərkəzimizdədir.

- *Dini məsələlərdə tələbələrimizi, dolayısı ilə gənclərimizi əmanət edə biləcəyimiz Türkiyədən başqa hansı ölkələrin təhsil sistemi, ya da müəllimləri ola bilər?*

- Hazırda fərq qoymadan müxtəlif ölkələrin təcrübəsini öyrənməyə çalışırıq. Ancaq bəlli olduğu kimi, Türkiyə ilə ölkəmiz strateji tərəfdaşdır. Ona görə ilk səfərimizi Türkiyəyə etdik. Növbəti mərhələdə Rusiyaya, Orta Asiya ölkələrinə səfərlər olacaq. Rusiyada fəaliyyətdə olan və kifayət qədər nüfuzlu islam institutları mövcuddur. Moskvada, Kazanda olan institutlarla hazırda danışıqlarımız gedir. Eyni zamanda, Özbəkistanın hələ sovet dövründən fəaliyyət göstərən universiteti var, xüsusi akademiya fəaliyyət göstərir. Kembric, Oksfordda islamı araşdıran müxtəlif mərkəzlər, institutlar var. Elə Amerikada da təcrübəsindən yararlana biləcəyimiz dini araşdıran müəssisələr fəaliyyətdədir. Onlarla da təcrübələrini öyrənmək istəyimizi bildirən yazışmalara başlamışıq.

Ərəb ölkələri arasında Misirin zəngin təcrübəsi olan universiteti var. Malayziyada məşhur islam universiteti ilə əməkdaşlıq üzərində müzakirələr gedir. Əsas məqsədimiz həmin ölkələrdə dini təhsilin necə təşkil edildiyi, bu sahədə hansı yeniliklərin olduğu, nailiyyətləri barədə məlumat toplamaqdır. Həmin məlumatlar əsasında Azərbaycan üçün ən uyğun olanları seçə bilərik. Uyğun olmayan ən maraqlı təcrübəni ölkəmizin xarakterinə uyğunlaşdırmaq üzərində işləməyi düşünürük. Sadəcə, islamla bağlı deyil, bütövlükdə dinşünaslıqla bağlı həm Rusiyada, həm də Avropa və Amerikadakı təhsil müəssisələri ilə danışıqlar aparırıq. Elə müəssisələr var ki, dini təhsil müəssisəsi olmasa da, dinlə bağlı bir bölümü, fakültəsi mövcuddur.

- *Tətbiq etməyi düşündüyünüz elə bir maraqlı təcrübə varmı?*

- Türkiyə sistemi ilə yaxından tanış olmaq imkanımız yaranıb. Hələ ki, layihələri nəzərdən keçiririk. Türkiyədə təhsil prosesinə xaricdən çoxlu müəllim cəlb edilib; məsələn, orada ərəb dilini tədris edən müəllimlərin əksəriyyəti ərəb ölkələrindən dəvət edilib.

- *Bəlkə dili tədris edən müəllimin xaricdən gəlməsi o qədər problem yaratmaz. Amma dini məsələdə hansı müəllimin gəlib necə bir ismarış ötürəcəyini əvvəlcədən hesablamaq mümkün olmaya bilər, elə deyilmi?*

- Bəli. Türkiyədə din ənənəsi çox güclüdür. Azərbaycanda isə uzun müddət məhdudiyyətlər tətbiq olunub və bu səbəbdən dini dünyagörüş möhkəmlənə bilməyib. Ona görə çalışırıq ki, fəaliyyətimizdə ideoloji təhlükəsizliyi də təmin edək. Dediyiniz kimi, din sahəsində kənar müəllim öz ideologiyasını təbliğ edə bilər. Odur ki, xaricdən müəllim, hətta tələbə mübadiləsi məsələsinə də maksimum dərəcədə həssas yanaşırıq. Prosesdə hər hansı zərərli təsirlə üzləşməmək, tələbə və ya müəllimlərimizin hansısa zərərli ideoloji təbliğata məruz qalması üçün ehtiyatı əldən verməməliyik. Türkiyədə tələbələrin Avropada xarici dil kurslarına, təcrübəyə göndərilməsi kimi müxtəlif diqqətçəkən təcrübələr var. Orada siniflərin təşkili, müəllimlərin qiymətləndirilməsi ilə bağlı təcrübə də marağımıza səbəb oldu.

- *İkili diplom proqramları necə, mümkün olacaqmı?*

- Gələcək üçün nəzərdən keçirilir. Bir çox universitetlərimiz bunu dünyanın ayrı-ayrı ölkələrindəki universitetlərlə həyata keçirməyə başlayıb. Azərbaycan İlahiyyat İnstitutu da dini təhsil verən təhsil müəssisələri ilə ikili diplom proqramlarına qoşulacaq. Hədəflərimizdən biri budur. Ancaq hansı universitetlərlə bunu reallaşdıra biləcəyimizi gələcək göstərəcək.

- *Növbəti təhsil pillələrində tədrisin təşkili nə vaxt mümkünləşəcək?*

- İnstitutumuzda artıq magistratura pilləsində təhsil var. Doktorantura pilləsində də tədrisin aparılması üçün Nazirlər Kabineti qərar verib. Odur ki, növbəti tədris ilindən bakalavr və magistratura ilə yanaşı, doktorantura pilləsində də təhsil verə biləcəyik.

# "Universitetlər, cəmiyyət və bəşəriyyətin gələcəyi"

## Moskva Dövlət Universitetində beynəlxalq forum keçirilib



M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Universitetlər, cəmiyyət və bəşəriyyətin gələcəyi" adlı beynəlxalq forum keçirilib. Rusiya ali təhsil müəssisələrinin və Avrasiya Universitetlər Assosiasiyası Şurasının üzvü olan universitet rektorlarının, innovativ şirkətlərin və dövlət idarəetmə orqanlarının, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi forumda Bakı Dövlət Universitetini rektor Elçin Babayev təmsil edib.

Böyük çağırışlar dövründə universitetlərin qlobal elm-təhsil, texnoloji və humanitar vəhdətində roluna həsr olunan forumu M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Antonoviç Sadovniçi açıb. Ali təhsilin inkişafında qlobal tendensiyaları təhlil edən V.A.Sadovniçi dünya təhsil prosesində Rusiya ali təhsilinin yeri və rolu haqqında danışıb. Bəşəriyyətin qarşısında duran çətinliklər barədə məlumat verən MDU-nun rektoru internet istifadəçilərin sayının artması ilə bağlı olaraq rəqəmsal məkanda yaranan problemlərin qloballaşan dünyanın ən böyük çağırışlarından biri olduğunu qeyd edib, ekoloji problemlər və kosmosun lazımınca araşdırılmaması kimi məqamlara diqqət yönəldib.

Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevanın elm, təhsil, cəmiyyət və bəşəriyyətin gələcəyi ilə bağlı məzmunlu və dolğun çıxışı Forum iştirakçıları tərəfindən xüsusi maraqla qarşılanıb.

Forum çərçivəsində Rusiya Rektorlar Şurasının və Avrasiya Universitetlər Assosiasiyası Şurasının növbəti iclası keçirilib və akademik V.A.Sadovniçi yenidən hər iki qurumun prezidenti seçilib. Eyni zamanda iclasda Avrasiya Universitetlər Assosiasiyası Şurasının Büro üzvlərinin seçkisi də baş tutub və BDU-nun rektoru Elçin Babayev qurumun Büro üzvü seçilib.

Rektor E.Babayev forumda 80 illik yubileyi ərəfəsində olan Moskva Dövlət Universitetinin rektoru Viktor Antonoviç Sadovniçini təbrik edərək, ona Azərbaycanı təcəssüm etdirən hədiyyə təqdim edib.

Forum çərçivəsində Bakı Dövlət Universiteti ilə Avrasiya Universitetlər Assosiasiyası Şurasının üzvü olan aparıcı universitetlərlə ikitərəfli əlaqələr və gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

# "Sabahın alimləri"nə nüfuzlu təşkilatların sertifikatları verilib

Martın 28-də Təhsil Nazirliyində "Sabahın alimləri" VIII Respublika Müsabiqəsi çərçivəsində dünyanın nüfuzlu təşkilatlarının sertifikatları təqdim edilib.



Tədbirdə çıxış edən Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Yaqub Piriyev son illər təhsil sahəsində həyata keçirilən islahatlar, istedadlı şagirdlərlə bağlı layihələr barədə ətraflı məlumat verib. Bildirib ki, müsabiqənin cari ilin fevral ayında keçirilən final mərhələsində 14 şəhər və rayonun ümumtəhsil məktəblərində təhsil alan 369 şagird 225 layihə ilə müraciət edib.

Ümumilikdə müsabiqənin final mərhələsində indiyədək 1187 şagird iştirak edib, onlardan 529 nəfəri müsabiqənin müxtəlif mükafatlarına layiq görülüb. Müsabiqənin qalibləri sırasından seçilən ən yaxşı layihələrin müəllifləri Amerika Birləşmiş Ştatlarında keçirilən, hər il dünyanın 75 ölkəsindən olan 1800-dən çox şagirdin iştirak etdiyi İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilir.

Tədbirdə 24 şagirdin yerinə yetirdiyi 18 layihəyə "İntel"in Mükəmməllik Mükafatı, Amerika Metrologiya Assosiasiyası, Vitro-biologiya Cəmiyyəti, RİCOH şirkəti, Qadın Geoalimlər Assosiasiyası, Amerika Psixologiya Assosiasiyası və Mü Alfa Teta Riyaziyyat Cəmiyyətinin sertifikatları təqdim edilib.

Qeyd edək ki, mükafatlandırılanlar arasında Bakı, Sumqayıt şəhərləri, Lənkəran, Ucar, Cəlilabad, İsmayıllı və Balakən rayonlarının ümumi təhsil məktəblərinin şagirdləri var.

# Direktor vəzifəsinə növbəti yerləşdirmənin nəticələri

Dövlət ümumi təhsil müəssisələrində vakant olan direktor vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin növbəti yerləşdirmə nəticələri açıqlanıb.

Nəticələrə əsasən, 53 nəfər namizəd müvafiq məktəblərə direktor vəzifəsinə təyin edilib. Yeni direktorlar aprelin 1-dən öz vəzifələrinin icrasına başlayacaqlar.

Qeyd edək ki, "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul və çalışmanın yaş həddinə çatmış direktorlarla əmək münasibətlərinin tənzimlənməsi Qaydaları"na uyğun olaraq, 2018-ci ilin noyabr ayında elan edilmiş müsabiqədə 228 nəfər uğur qazanıb. İlkin yerləşdirmə nəticəsində 104 nəfər namizəd fevralın 25-dən, 28 namizəd isə martın 4-dən müvafiq məktəblərə direktor vəzifəsinə təyin edilib.

Sözügedən müsabiqənin nəticəsinə əsasən, ümumilikdə 185 nəfər ümumi təhsil müəssisəsinin direktoru vəzifəsinə təyin edilib.

# Valideynlərin tərbiyədə rolu



**Məlahət MÜRŞÜDLÜ,**
*pedaqogika üzrə fəlsəfə doktoru*

> **Heç bir ata-ana uşağına gözəl tərbiyədən daha yaxşı bir miras qoya bilməz.**
>
> **Məhəmməd Peyğəmbər**

⇦ Əvvəli səh.1

Bu forma valideynlərin təlim-tərbiyə prosesində könüllü tərəfdaşa çevrilməsi üçün geniş imkanlar yaradır. Bir sözlə, valideyn tərbiyədə məktəbin və cəmiyyətin əsas tərəfdaşı olduğunun məsuliyyətini dərk edərək, necə deyərlər, "yaxa"sını kənara çəkmir, illər boyu səsləri "gəlməyən" və yaxud da uşağının bütün qüsurlarını məktəbdə, müəllimdə axtaranlar öz potensial imkanlarını dərk edir, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində, müasir tələblər baxımından qurulmasında təmənnasız, könüllü olaraq tərəfdaşa çevrilir. Bu sadalananlar kampaniya xarakterli deyil, davamlı olaraq yerinə yetirilə biləcək fəaliyyətlərdir. Və bu fəaliyyətlərdən ümumi işə fayda verəcək aşağıdakı nəticələr əldə olunacaq:

- Valideyn öz potensial imkanlarını və ehtiyaclarını aşkarlamaq üçün özünü və övladını xaraktercə, keyfiyyətcə öyrənəcək;
- Ailədə ata-övlad-ana arasında anlaşma, yardımlaşma, fikir mübadiləsi aparmaq, razılığa gəlmək dinamik xarakter alacaq;
- Valideynlərin qonşular, məhəllə sakinləri, iş yoldaşları ilə münasibətlərdə tərbiyə məsələləri əsas mövzuya çevriləcək;
- Ehtiyac olduqda valideynlərin iaşə, səhiyyə təşkilatları və biznes qurumları olaraq müxtəlif tipli təsisatlarla əlaqələri yaranacaq;
- Valideynlərdə və dünyaya bir fərd kimi gəlmiş uşağın şəxsiyyət kimi yetişdirilməsinin alt yapısı olan sosiallaşma təmin edilir.

Yekunda isə valideyn, məktəb və cəmiyyət qazanır.

Əlbəttə, təlim-tərbiyədə effektiv və səmərəli olan bu "resept"dən bütün ölkələrdə tam olaraq istifadə edildiyini söyləmək mümkün deyil. Çünki bu qəbildən olan fəaliyyətlərin əsasında demokratik prinsiplərin mövcud olduğu cəmiyyətlər durur. Bu elə bir cəmiyyətdir ki, burada bütün üzvlər, tərəflər öz qabiliyyətlərini, müxtəlifliklərini dəyərləndirmək imkanına malik olurlar və hər bir fərdin fikir və təkliflərinə, tənqidlərinə hörmətlə yanaşılır. Və tərbiyəni bir-birinə bağlayan həlqələrdən hər birinin qanunda yazılıb-yazılmamasından asılı olmayaraq, hüquq və vəzifələri, yerinə yetirəcəyi missiya bir-birinə "yaşıl" işıq yandıraraq vəhdətdə hərəkət edir. İngilislər: "Yaxşı nümunə ən yaxşı tərbiyədir" - deyirlər. Fikrimizcə, hər hansı bir sistemin mövcudluğundan asılı olmayaraq, bu üç həlqənin hər biri uşağın tərbiyəsində müsbət mənada böyük rol oynaya bilər. Məsələn, ən sadə və əlçatan nümunələrdən biri ailədə valideynlərin şəxsi nümunəsidir. Valideyn öz müsbət keyfiyyətləri ilə uşaqda əxlaqi-mənəvi dəyərləri, davranışları, qabiliyyətləri formalaşdırır.

C.Lokk deyirdi ki, bütün millətin rifahı uşaqların tərbiyəsindən asılıdır. Fikrimizcə, bu, yalnız millətin yox, eyni zamanda ailənin də rifah halının yaxşı olması deməkdir.

# Qızıl Aypara Cəmiyyəti Salyan məktəblərində maarifləndirici tədbirlər keçirir

**Rövşən AĞAYEV**

Salyan rayonunun təhsil müəssisələrində müəllimləri və şagirdləri öz ətrafında könüllülük prinsipi əsasında birləşdirən Qızıl Aypara Cəmiyyətinin ilk təşkilatları fəaliyyət göstərir.

Rayon üzrə Qızıl Aypara Cəmiyyətinin sədri ixtisasca həkim olan İxtiyar Mustafayevdir. O, məktəblərdə fəaliyyət göstərən ilk təşkilatlarda mütəmadi görüşlər keçirir, şagirdlərlə bu cəmiyyətin fəaliyyəti ilə əlaqədar söhbətlər aparır.

İlk təşkilatların üzvlərinin təşkilatçılığı ilə şəhər 1 nömrəli məktəb-liseydə "Təbii fəlakət zamanı əhalinin təxliyəsi", şəhər 4 nömrəli tam orta məktəbdə "Təbii fəlakətdən zərər çəkmiş şəxslərə ilkin tibbi yardımın göstərilməsi", 2 nömrəli tam orta məktəbdə QAC-nin beynəlxalq təşkilat kimi fəaliyyəti, Arbatan kənd tam orta məktəbində Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində ilk təşkilatların rolu, Qarabağlı-1 kənd tam orta məktəbində cəbhə bölgəsində QAC-nin apardığı işin rolu və s. mövzularda tədbirlər keçirilib. Müharibə şəraitində olan ölkələrdə bu təşkilatın apardığı işlər barədə söhbətlər təşkil olunur.

Məktəblərdəki ilk təşkilatlar gənclərin çağırışaqədərki hazırlığı rəhbərləri ilə sıx əməkdaşlıq, keçirilən hərbi idman oyunlarında fəal iştirak edirlər. Rayon ərazisində yerləşən N saylı hərbi hissədə keçirilən hərbi-idman oyunlarında 35 tam orta məktəb iştirak etmiş, rayonun Aşağı Noxudlu kənd tam orta məktəbi qalib olaraq zona mərhələsinə vəsiqə alıb. Bu tədbirlərdə rayon ictimaiyyəti, səhiyyə işçiləri ilə yanaşı, Qızıl Aypara Cəmiyyətinin üzvləri də yaxından iştirak ediblər. Bu tədbirlər gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə böyük töhfələr verir.

Ayrı-ayrı məktəblərdə müəllimlərin rəhbərliyi ilə şagirdlərdən ibarət "Könüllülər" dəstələri yaradılıb, bu dəstələrə daxil olan şagirdlər vasitəsilə ərazilərdə olan şəhid ailələrinin üzvləri, aztəminatlı ailələr, əlil vətəndaşlarla görüşlər keçirilir, onların sosial ehtiyacları öyrənilir, mənzil-məişət, həyətyanı sahələrdə olan işlərinə dəstək göstərilir.

Bundan əlavə, cəmiyyətin ilk təşkilatları Salyan şəhər və Qaraçala qəsəbə inzibati ərazisində yerləşən şəhidlər xiyabanlarında olur, məktəblilər arasında vətənpərvərlik tərbiyəsinin aşılanması istiqamətində tədbirlər həyata keçirilir.

2016-cı ilin aprel döyüşləri zamanı şəhid olmuş və ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmiş baş leytenant Mehdiyev Rəşid Rövşən oğlu Salyan rayon Xalac kənd sakini olub və kənddə Yuxarı Xalac-2 kənd tam orta məktəbini bitirib. Müəllimlərin rəhbərliyi ilə cəmiyyətin üzvləri mütəmadi olaraq ailədə olur, ailəyə mənəvi dəstək göstərir, onlara təsərrüfat qayğılarında dayaq durmağa çalışırlar.

Təhsil müəssisələrində Fövqəladə Hallar Nazirliyinin xətti ilə keçirilən "Fövqəladə hallar uşaqların gözü ilə" adlı müxtəlif məzmunlu müsabiqələrdə şagirdlər fəal iştirak edirlər. Təbii ki, şagirdlərin tədris prosesindən kənar tədbirlərə cəlbi onların ictimai fəallığının artmasında, mənəvi cəhətdən sağlam və vətənpərvər vətəndaş kimi formalaşmasında müsbət rol oynayır.

Ötən il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ölkəmizdə böyük təntənə ilə qeyd olunub. Cümhuriyyət dövründə dövlətçiliyin inkişafı və dövlətin möhkəmləndirilməsi üçün bir sıra önəmli addımlar atılıb, xüsusən ölkədə təhsilin inkişafına və milli kadrların hazırlanmasına xüsusi səy göstərilib. Parlamentin 1919-cu il sentyabrın 1-də keçirilən iclasında yüz nəfər gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrin ali məktəblərinə göndərilməsi haqqında qanun da bu baxımdan əhəmiyyətli bir hadisə olub. Həmin 100 nəfərdən üçü Salyandan olub. Onlardan Hüseynov Əlihüseyn və Hüseynzadə Bəhrambəy Almaniyaya göndərilib. Hüseynbəyov Zeynalabdin bəy isə Fransaya gedib və burada Paris Universitetinin tibb fakültəsinin uşaq xəstəlikləri şöbəsinə qəbul olunub. Sonralar Z.Hüseynbəyov fransız, ingilis, alman və rus dillərini mükəmməl bilən Azərbaycanın ilk pediatr professoru olub.

1940-cı ildə Z.Hüseynbəyov sovet rejimi tərəfindən sürgün edilib, 1948-ci ildə cəza müddətini başa vuran pediatr əvvəl Yevlax rayonuna baş həkim, sonra Tibb İnstitutunda "Uşaq xəstəlikləri" kafedrasının müdiri vəzifəsinə təyin edilir, Uşaq Həkimləri Cəmiyyətinin sədri seçilir. 1969-cu ildə vəfat edib.

Hazırda Salyan uşaq xəstəxanası onun adını daşıyır. Fəaliyyəti dövründə Z.Hüseynbəyov uzun müddət Respublika Qırmızı Aypara Cəmiyyətinin işində fəal iştirak edib. Nəzərə alsaq ki, cari ilin sentyabr ayında Xalq Cümhuriyyəti Parlamentinin qeyd olunan qərarının qəbul edilməsinin 100 ili tamam olur, Salyan Rayon İcra Hakimiyyətinin, rayon təhsil şöbəsinin və Qızıl Aypara Cəmiyyətinin rayon bölməsinin birgə təşkilatçılığı ilə yerli təhsil ocaqlarında müxtəlif tədbirlərin, o cümlədən həmin şəxsin övladları və qohumları ilə məktəblərdə görüşlərin təşkil olunması nəzərdə tutulur.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rayon bölməsi tərəfindən də idarə və təşkilatlarda, həmçinin məktəblərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Qızıl Aypara Cəmiyyətinin yaranmasının 100 illik yubileyi münasibəti ilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti 10 mart 1920-ci ildə yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamı ilə hər ilin 10 mart tarixi respublikamızda "Qızıl Aypara" günü kimi qeyd edilir.

# YUNESKO-nun "Qlobal məqsədlər" dərsləri



## Sülh nə deməkdir?

**VII dərs**

*Mövzu:*

Sülh nə deməkdir?

*Fənn:*

Sosial araşdırmalar, Vətəndaşlıq, Həyat bilgisi

*Təlim məqsədi:*

* Sülhün bir neçə tərifini öyrənmək.

* Vətəndaş fəallarının fəaliyyətinin və simvollarının xüsusiyyətlərini araşdırmaq.

* Sinifdə və həyatda dinc birgə yaşam prinsiplərinin tətbiqi üsullarını müəyyənləşdirmək.

*Hazırlıq:*

* Əlavə 1-i oxuyun.

* Şagirdlərə tanış olan dinc və münaqişəli situasiyaları əks etdirən fotoşəkilləri seçin.

* Şagirdlərin vətəndaş fəallar haqqında tədqiqat aparmaq üçün lazım olan kitab və saytlara çıxış imkanı olduğuna əmin olun və ya əlavədəki məlumatları çap edin.

*Müəllim üçün qeyd:*

Bu dərs bəzi həssas məsələlərə toxunduğundan müəllim şagirdlərin hisslərinə ehtiyatla yanaşmalıdır.

*Ümumi vaxt:* 60 dəq.

*Yaş həddi:* 8-11 yaş.

*Təlim tapşırığı* - 5 dəq.

Dinc və münaqişəli situasiyaları əks etdirən (məsələn, dua etməyi, dostlar arasında söhbəti, qışqıran və özlərini aqressiv aparan insanları, insanların dinc nümayişini, tankları, polisin cəlb olunması ilə keçirilən etiraz aksiyasını) fotoşəkilləri seçin.

Şəkillər ehtiyatla seçilməlidir.

Şəkilləri şagirdlərə göstərin və onlardan hər bir şəkli ifadə edə biləcək 1-3 söz yazmağı xahiş edin. Şəkillərin onlarda oyatdığı hissləri əvvəlcə cütlüklərlə, sonra isə bütün siniflə müzakirə etməyi təklif edin.

Şagirdlərin diqqətini dinc və münaqişəli situasiyaları ifadə etmək üçün istifadə olunan sözlərə yönəldin və onlara "Sizin fikrinizcə, münaqişəli situasiyalar nə səbəbdən baş verir?" sualını verin:

Dərsin mövzusunu və məqsədlərini elan edin

*Təlim tapşırığı* - 10 dəq.

**Sülh nə deməkdir?**

Şagirdlərə aşağıda verilən təriflərdən doğru və ya onların fikirləri ilə oxşar olanını seçməyi təklif edin:

* "qayğı və problemlərdən azad olmaq";

* "mənəvi və ya emosional rahatlıq hissi";

* "müharibənin olmadığı və ya bitdiyi dövr".

**Şagirdlər sülhü necə təsvir edir?**

Şagirdlərin ideyalarını inkişaf etdirmək məqsədi ilə aşağıdakı suallardan istifadə edin:

* Müxtəlif insanlar üçün sülh müxtəlif məna kəsb edə bilərmi? Nə üçün belə ola bilər?

* Biz münaqişələri necə həll edirik? Münaqişələrin həlli üçün hansı dinc yollar mövcuddur?

* Biz sülhü daxilimizdə və ya ətrafımızda hiss edirikmi?

Cavabları soruşmazdan əvvəl şagirdlərə düşünmək üçün bir neçə dəqiqə vaxt verin.

Şagirdlərin cavablarından bir neçə açar sözü və ideyaları lövhədə və ya flipçartda qeyd edin. Sülhün tərifi ilə bağlı əlavə məlumat əldə etmək üçün bu qısa məqaləni oxuyun: *http://www.international-alert.org/what-peace.*

İnternetə çıxışı olmayan şagirdlər paylayıcı materiallardan istifadə edə bilər (*Əlavə 1*).

*Diferensiasiya və alternativ tapşırıqlar*

11 yaşdan yuxarı və daha hazırlıqlı şagirdlər üçün siz insan hüquqları üzrə Ümumdünya Bəyannaməsindən aşağıdakı bəyanatı sitat gətirə bilərsiniz:

"Azadlığın, ədalətin və sülhün əsasını insan ailəsinin hər bir üzvünə və onların bərabər, ayrılmaz hüquqlarına xas olan ləyaqətin tanınması təşkil edir".

"Bəyanat nə ifadə edir?" sualı ətrafında düşünməyi və müzakirə etməyi şagirdlərə təklif edin.

Bu müzakirəni fəallarla bağlı sonrakı tapşırıqla uzlaşdırmaq olar: fəalların əlavə 2-də verilən qısa tərcümeyi-halları insan hüquqları ilə bağlıdır.

*Təlim tapşırığı* - 20 dəq.

**Vətəndaş fəallarının həyatının tədqiqi.**

Şagirdləri 3-4 nəfərlik qruplara bölün. Qruplara vətəndaş fəallarının adları qeyd olunan xüsusi vərəqələr paylayın və ya hər qrupa bir vətəndaş fəalını təklif edin. Fəal qismində Kərim Vəfi, Leyma Qbovi, Mahatma Qandi, Malala Yusufzay və Nelson Mandelanı qeyd etmək olar.

Şagirdləri qruplar üzrə bölüşdürməyin optimal variantını seçin.

Şagirdlərə əlavə 2-dən materialları paylayın və ya internetdən istifadə edərək fəalların tərcümeyi-hallarını araşdırmağı təklif edin. Bəzi şagirdlər üçün məlumatı kompüter ekranından deyil, çap olunmuş material və kitablardan götürmək daha rahat ola bilər.

Seçiminizdən asılı olaraq mövzu ilə bağlı başqa fəalın tərcümeyi-halı da istifadə oluna bilər. Lakin nəzərə alın ki, bəzi fəallar müəyyən ölkə və ya region kontekstində siyasi xadim sayıla bilər. Ona görə də onları ehtiyatla seçin.

Şagirdlərə vərəq və ya plakat kağızı, yazı ləvazimatı verin. Fəalın həyatı ilə bağlı mühüm faktları və onların nəyə görə mübarizə apardıqlarını əks etdirən plakat hazırlamağı şagirdlərdən xahiş edin. Fəalın fotoşəklini çap etməyi və şəklini çəkməyi təklif edin.

**Aşağıdakı sualları cavablandırmağı tapşırın:**

* Sizin vətəndaş fəalınız kimdir? Onun adı nədir? O haradandır?

* Onun məqsədi nədir?

* O məqsədinə necə nail oldu və ya yaxud nail olmağa çalışır?

* Nə üçün onun metodları dinc metodlar sayılır?

* O hansı xüsusiyyətlərə malikdir?

*Diferensiasiya və alternativ tapşırıqlar*

Bəzi şagirdlər üçün ayrılıqda vətəndaş fəalını araşdırmaq çətin ola bilər. Belə halda alternativ olaraq bir və ya iki fəalı seçin və bütün siniflə birgə onların həyatını araşdırın.

*Təlim tapşırığı* - 10 dəq.

**Təqdimatlar**

Qruplara plakatların təqdimatı üçün 1-2 dəqiqə vaxt verin. Fəal haqqında bildiklərini və ya onun fəaliyyətini plakatdan oxumaq əvəzinə yaradıcı şəkildə nümayiş etdirməyi şagirdlərə (məsələn, qısa səhnəcik vasitəsilə) təklif edin.

*Təlim tapşırığı* - 10 dəq.

**Şagirdlər tərəfindən sülhün müəyyən edilməsi**

Şagirdlərə vərəqələr paylayın və onlardan sülhün nə olduğu barədə öz fikirlərini yazmağı xahiş edin. Fikirlərini sözlə ifadə edə bilməyənlərə sülhü təsvir etməyə icazə verin.

Vərəqələri yığın (anonim qalmaq istəyənlər vərəqələrdə adlarını qeyd etməyə bilər). Onlardan bir neçəsini sinfə oxumaq və ya göstərmək üçün seçin.

Müxtəlif təriflər verilən vərəqələri seçməyə çalışın.

*Diferensiasiya və alternativ tapşırıqlar*

Kiçikyaşlı və ya daha az hazırlıqlı şagirdlər üçün sülhün tərifini verərkən istifadə edə biləcəyi şəkil, söz və ifadələri seçib hazırlaya bilərsiniz.

Məsələn, Sülh... Hamının xoşbəxt olduğu, insanların bir-biri ilə müharibə aparmadığı bir dövrdür.

Vərəqələri sinifdə tematik sərgi təşkil etmək üçün istifadə etmək olar. Məsələn, şagirdlərdən sülhü və ya onun vacibliyini şərh edən digər sitat, şəkil və şeirlər tapmağı xahiş etmək olar.

Bu, digər şagirdlərə və məktəbin qonaqlarına sizin şagirdlərinizin nəyi öyrənib, müzakirə etdiyini anlamağa imkan yaradır.

*Təlim tapşırığı* - 5 dəq.

**Siniflə birgə müzakirə.**

* Biz bu gün nə öyrəndik? Davranışımız və dostlarla ünsiyyətimiz sinifdə nə kimi dəyişiklik edə bilər?

* Yer kürəsinin daha dinc və rahat məkan olması üçün biz nə edə bilərik?

Şagirdlərə bu sualları cütlərdə müzakirə etmək üçün vaxt ayırın, sonra isə onların bəzilərinə fikirlərini bölüşmək üçün şərait yaradın.

Qeyd edin ki, şagirdlər mövcud situasiyanı dəyişə, hətta kiçik işlər görməklə planetimizi daha dinc və rahat məkana çevirə bilərlər.

Digər tapşırıqlar üçün əlavə 3-ə baxın.

*Diferensiasiya və alternativ tapşırıqlar*

Bütün şagirdlərin dərsdə keçilənləri dərk etdiyini yoxlamaq üçün alternativ olaraq sualları yazılı şəkildə cavablandırmağı xahiş edin.

**Qlobal Məqsədlərə çatmaq üçün fəaliyyətə başlayın.**

Müəllim olaraq sizin şagirdlərin müsbət enerjisini düzgün istiqamətləndirmək və onları aciz olmadıqlarına, dəyişikliyin mümkün olduğuna inandırmaq imkanınız var.

"Design for Change" hərəkatı tərəfindən keçirilən "Mən bacarıram" məktəb müsabiqəsi uşaqları əməkdaşlığa çağıraraq öz mühitlərində dəyişikliklər etməyə və öz təcrübələrini dünyadakı uşaqlarla bölüşməyə dəvət edir. Başlamaq üçün www.dfcworld.com saytına daxil olun.

"Design for Change"in dərslər və ya şagirdlərə sərbəst fəaliyyətləri üçün www.globalgoals.org/ worldslargestlesson sayta daxil olun.

*Əlavə 1*

**Sülh nə deməkdir?**

Sülhün müxtəlif təsvir üsulları var. Qlobal nöqteyi-nəzərdən sülh - münaqişələrin zorakılıqsız həll olunması və həyat keyfiyyətinin yaxşılaşmasıdır. www.international-alert.org saytına əsaslanaraq "Sülh:

* hər kəs təhlükə, qorxu və zorakılıq olmadan yaşayır və zorakılığın bütün formaları qanunla qadağan olunub;

* hər kəs qanun qarşısında bərabərdir, məhkəmə strukturlarına inanır, ədalətli və güclü qanunlar insan hüquqlarını müdafiə edir;

* hər kəs siyasi qərarların formalaşdırılmasında iştirak edə bilər və hökumət xalq qarşısında hesabat verir;

* hər kəs qida məhsulları, təmiz su, yaşayış yeri, təhsil, səhiyyə və layiqli həyat səviyyəsi kimi əsas tələbatlara ədalətli və bərabər çıxış imkanına malikdir;

* cinsindən, etnik mənsubiyyətindən və digər aspektindən asılı olmayaraq hər kəs işləmək və pul qazanmaq imkanına malikdir".

**Tənqidi təfəkkürü inkişaf etdirən suallar:**

1. Nə üçün sülh bizim üçün vacibdir?

2. Yer kürəsi sülhsüz necə olardı? Dəyişərdi, yoxsa olduğu kimi qalardı?

3. Sizin üçün sülh nə deməkdir?

4. İnsan hüquqları haqqında eşitdiyinizlə sülhün bu cür tərifi arasında nə kimi oxşarlıq var?

*Əlavə 3*

*Əlavə tapşırıqlar:*

Siniflə birgə "Sülh sazişini" hazırlayın:

* Şagirdlərlə birgə sinifdə sülh və əmin-amanlıq şəraitini qorumaq üçün zəruri tədbirləri müəyyənləşdirin. Sazişi vərəqə yazın və ya çap edin. Şagirdlərdən onu imzalamağı xahiş edin.

"Böyük xeyirxahlıq" müsabiqəsi:

* "Xeyirxahlıq aktları" üçün vasitələr siyahısını daxil etməklə "Böyük xeyirxahlıq" məktəb müsabiqəsində iştirak edin.

* Fərdi qaydada iştirak edin: www.greatkindnesschallenge.org/event.html

* Məktəbinizi qeydiyyata salın və onu daha xeyirxah məkana çevirməyi öhdənizə götürün: www.greatkindnesschallenge.org/School/event.html





*Əlavə 2. Vətəndaş fəalları* - Leyma Qbovi və Mahatma Qandi

**Leyma Qbovi kimdir?**

Leyma Qbovi 2003-cü ildə Liberiyada II vətəndaş müharibəsinə son qoyan, sülh uğrunda qadın hərəkatının lideri olaraq gördüyü işlərə görə 2011-ci ildə Nobel mükafatı almışdır.

Vətəndaş müharibəsi bir ölkə daxilində müxtəlif insan qrupları arasında aparılan müharibədir.

Leyma 1972-ci ildə mərkəzi Liberiyada anadan olmuşdur.

I vətəndaş müharibəsi başlayanda o öz valideynləri və bacıları ilə Liberiyanın paytaxtı Monrovi şəhərində yaşayırdı.

Leyma I vətəndaş müharibəsinin başlandığı ilk günü yaxşı xatırlayır. "İyul səhərlərindən birində, mən 17 yaşında idim, həkim olmaq arzusu ilə universitetə gedirdim, birdən döyüşlər başlandı".

**Leyma Qbovi nə edib?**

Müharibənin liberiyalılara təsirini görərək o, müharibə şəraitində yaşayan uşaqlara kömək etmək üçün postravmatik sindrom üzrə psixoloq olmağı qərara aldı. Postravmatik sindrom üzrə ixtisaslaşmış psixoloqlar müharibə, zorakılıq və ya ekstremal situasiyalarda zərər çəkmiş insanlara, onları təqib edən kədərli xatirələrdən azad olmağa kömək edir.

O, tanıdığı xristian qadınlarını sülh naminə hərəkata cəlb etmişdir. Sonra isə müsəlman qadınları ilə işləyərək bu qrupları bir araya gətirmişdir.

Leyma həmin qrupun nümayəndəsi, bir neçə həftə davam və minlərlə insanları əhatə edən qadınların etiraz aksiyasının lideri olmuşdur. Leyma Liberiya qadınlarının hərəkatı tərəfindən təşkil olunmuş sülh naminə ictimai etiraz aksiyalarına başçılıq etmişdir. Liberiyanın prezidenti Çarlz Teyloru fəallarla görüşməyə və Qanada keçirilən rəsmi sülh danışıqlarında iştirak etməyə vadar etmişdir. Leyma Liberiyada yerləşən, onun adını daşıyan Afrika Sülh Fondunun təsisçisi və prezidentidir. Onun fondu Qərbi Afrikada qız, qadın və gəncləri təhsil və liderlik qabiliyyətlərinin inkişafı sahəsində dəstəkləyir.

**Mahatma Qandi kimdir?**

Mahatma Qandi 1869-cu il oktyabrın 2-də Hindistanda varlı ailədə anadan olmuşdur. Atası yerli ictimai xadim idi. O, oğlunun hüquqşünas olmasını arzulayırdı və 19 yaşında Londona təhsil almağa göndərmişdi. Üç ildən sonra o, Hindistana qayıtdı və şəxsi hüquq firmasını açdı, lakin uğursuzluğa düçar oldu. O digər hüquq firmasında işə düzəlməyi qərara aldı və Cənubi Afrikaya köçdü. Afrikada olarkən o, hindlilərə qarşı olan irqi ədavəti özündə hiss etdi. 20 il ərzində o hindlilər əleyhinə olan ayrı-seçkilik qanunvericiliyinə qarşı çıxış etdi. Bu ayrı-seçkilik Qandinin vətəndaş hüquqları uğrunda mübarizəyə başlamasına təkan verdi.

**Mahatma Qandi nə edib?**

1941-ci ildə vətəninə qayıdan Mahatma Qandi Hindistanı Böyük Britaniyanın müstəmləkəçiliyindən azad etmək uğrunda mübarizəyə tam hazır idi. O, Hindistan Milli Konqresinə başçılıq edərək ədalətsiz vergilərə və diskriminasiyaya qarşı mübarizə aparmaqda kasıb fermerlərə və fəhlələrə kömək edirdi. Onun digər məqsədləri kasıblığın azaldılması, qadın və kişilər arasında bərabərsizliyi aradan qaldırmaq idi. Bu məqsədlərə nail olmaq üçün o, vətəndaş itaətsizliyi aksiyaları təşkil edirdi.

Bu aksiyalar zamanı böyük insan kütlələri işləməkdən imtina edərək, küçələrdə oturub məhkəmələri boykot edirdilər. Bu aksiyalar eyni zamanda keçirilsə, bütün ölkənin işini iflic edə bilərdi. Bu etirazlar qeyri-qanuni olduğu üçün Qandi bir neçə dəfə həbs olunmuşdur. O, həbsdə olan zaman aclıq elan edirdi. Nəhayət, 1931-ci ildə Britaniya hökuməti onu azad etdi. Hindlilər onu çox sevirdilər. Çünki Qandi vətəndaş hüquqları uğrunda mübarizə aparırdı. Ömür boyu Qandi təvazökar həyat tərzi sürmüşdür. O, etirazlara çox əhəmiyyət versə də, həmişə zorakılığın əleyhinə olmuşdur. Qandi bu günə qədər dünyanın bir çox vətəndaş fəalları üçün böyük ilham mənbəyi olaraq qalır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universiteti

kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

**I - Filologiya fakültəsi:**

| № | Kafedra | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Azərbaycan dili və onun tədrisi metodikası | -4- dosent<br>-2- müəllim |
| 2. | Müasir Azərbaycan dili | -1- baş müəllim və ya dosent |
| 3. | Azərbaycan dilçiliyi | -3- dosent və ya professor<br>-1- müəllim və ya baş müəllim |
| 4. | Azərbaycan və dünya ədəbiyyatı | -1- professor |
| 5. | Ədəbiyyat və onun tədrisi metodikası | -2- dosent və ya professor<br>-2- müəllim və ya baş müəllim |
| 6. | İngilis dili və onun tədrisi metodikası | -4- baş müəllim və ya dosent<br>-2- müəllim |
| 7. | İngilis dili | -1- dosent<br>-14- müəllim və ya baş müəllim |
| 8. | Xarici dillər və onların tədrisi metodikası | -3- dosent (Rus dili)<br>-2- müəllim və ya baş müəllim (Rus dili)<br>-2- müəllim (Fransız dili) |

**II - Tarix və coğrafiya fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Azərbaycan tarixi | -4- müəllim və ya baş müəllim |
| 2. | Ümumi tarix | -3- dosent<br>-2- baş müəllim |
| 3. | Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası | -3- dosent və ya professor<br>-3- müəllim və ya baş müəllim |
| 4. | Ümumi coğrafiya | -3- dosent<br>-1- müəllim və ya baş müəllim |
| 5. | İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası | -2- baş müəllim və ya dosent<br>-2- müəllim |
| 6. | Ümumi pedaqogika | -1- dosent<br>-4- baş müəllim<br>-1- müəllim |

**III - Riyaziyyat və informatika fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Riyazi analiz | -1- dosent və ya professor<br>-2- müəllim və ya baş müəllim |
| 2. | Hesablama riyaziyyatı və informatika | -4 - dosent və ya professor<br>-5- müəllim və ya baş müəllim |
| 3. | Riyaziyyatın tədrisi metodikası | -1- müəllim və ya baş müəllim |
| 4. | Cəbr və həndəsə | -2- müəllim və ya baş müəllim |

**IV - Kimya və biologiya fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Biologiya və onun tədrisi metodikası | -3- dosent<br>-10- müəllim və ya baş müəllim |
| 2. | Analitik və üzvi kimya | -7- dosent<br>-7- müəllim və ya baş müəllim |
| 3. | Ümumi kimya və kimyanın tədrisi metodikası | -1- dosent |
| 4. | İnsan və heyvan fiziologiyası | -1- dosent<br>-3- baş müəllim<br>-3- müəllim |

**V - Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Yaş və pedaqoji psixologiya | -1- dosent və ya professor<br>-6- müəllim və ya baş müəllim |
| 2. | Məktəbəqədər təhsilin pedaqogikası və metodikası | -3- baş müəllim və ya dosent<br>-5- müəllim |
| 3. | Korreksiyaedici təlim | -4- müəllim və ya baş müəllim |
| 4. | Ümumi psixologiya | -1- dosent və ya professor<br>-4- müəllim |

**VI - Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Təsviri incəsənət və onun tədrisi metodikası | -4- baş müəllim<br>-7- müəllim |
| 2. | Fiziki tərbiyə, çağırışaqədər hazırlıq və onun tədrisi metodikası | -1- baş müəllim<br>-3- müəllim |
| 3. | Musiqi və onun tədrisi metodikası | -1- dosent və ya professor<br>-5- baş müəllim<br>-4- müəllim |

**VII - Fizika və texnologiya fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | Ümumi fizika | -3- dosent |
| 2. | Fizikanın tədrisi metodikası | -1- professor<br>-2- dosent<br>-1- baş müəllim |
| 3. | Texnologiya və onun tədrisi metodikası | -1- dosent<br>-3- baş müəllim<br>-1- müəllim |

**VIII - İbtidai təhsil fakültəsi:**

| № | Kafedralar | Boş olan vəzifələr |
|---|---|---|
| 1. | İbtidai təhsilin pedaqogikası və metodikası | -2- dosent<br>-6- müəllim və ya baş müəllim |
| 2. | Riyaziyyat və onun ibtidai kursunun tədrisi metodikası | -2- dosent |

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri Azərbaycan Respublikası Təhsil nazirinin 07 avqust 1996-cı il tarixli 401 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında əsasnamə"nin tələblərinə uyğun olaraq bu elan qəzetdə dərc olunan və *www.adpu.edu.az* saytında yerləşdirilən gündən başlayaraq 30 gün müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9:00-17:00 arası rektorun adına yazılan ərizə ilə birlikdə ADPU İnsan resursları şöbəsində qəbul edilir. Qeyd olunan vəzifələri tutmaq üçün müsabiqədə yalnız mövcud əsasnamənin tələblərinə uyğun namizədlər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin siyahısı:

1. *Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun adına ərizə;*
2. *kadrlar uçotunun şəxsi vərəqəsi;*
3. *tərcümeyi-hal;*
4. *ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;*
5. *dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı.*

**Ünvan:** AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 68
**Əlaqə telefonu:** (012) 498-08-16
**E-poçt:** office@adpu.edu.az
*www.adpu.edu.az*

**REKTORLUQ**

## Bakı məktəbliləri Türkiyədə

Paytaxt məktəbliləri Türkiyədə Novruz bayramı və TRT AVAZ telekanalının fəaliyyətə başlamasının 10 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak ediblər. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 4 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin (UGİM) "Dan ulduzu" rəqs ansamblının canlı yayımda təqdim etdiyi xalq rəqsləri tamaşaçılar tərəfindən coşqu ilə qarşılanıb.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) və TRT-nin birgə dəstəyi ilə keçirilən tədbirdə 4 nömrəli UGİM-in rəqs qrupu "Odlar yurdu" və "Qaval" adlı Azərbaycanın milli rəqslərini ifa ediblər. Məktəblilər Azərbaycan xalqının mədəniyyət və adət-ənənələrini nümayiş etdirib, tariximiz və milli-mənəvi dəyərlərimiz haqqındakı bilgilərini həmyaşıdları ilə bölüşüblər.

Sonra Niğdə bələdiyyəsində rəqs qrupunun üzvləri ilə keçirilən görüşdə Azərbaycan və Türkiyə arasında qardaşlıq, dostluq münasibətlərinin inkişafından məmnunluq ifadə edilib.

Daha sonra məktəblilər Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının mərkəzi qərargahında olublar.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4045, **Sifariş** 1013

**Məsul növbətçi:** N.Rəhimov


# Etibarsız sayılır

**Qərb Universiteti** tərəfindən 2007-ci ildə Ağayeva Esmira Ağamirzə qızına verilmiş B-089217 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qobustan şəhər** A.Qayıblı adına 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Həmzəliyev Bayramşah Qədir oğluna verilmiş A-257337 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Orucova Narxanım Elman qızına verilmiş A-136429 nömrəli bakalavr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli texniki peşə məktəbi tərəfindən 1992-ci ildə Əliyev Rövşən Fərman oğluna verilmiş Г-377866 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 2005-ci ildə İskəndərov Kərim Osman oğluna verilmiş BB-II-026566 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 6 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədova Aytən Fəqani qızına verilmiş B-348556 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Zarağan kənd 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Fərzəliyev Şamo Şamil oğluna verilmiş B-211072 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Sabirabad kənd 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Nuriyeva Ülviyyə Allahşükür qızına verilmiş A-680271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 1994-cü ildə Məmmədov Əlsurət Qnyaz oğluna verilmiş AB-I- 036791 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Heybətov İlham Tofiq oğluna verilmiş A-053939 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Avropa Liseyini** 2017-ci ildə bitirmiş Kərimli Heydər Əlövsət oğluna verilmiş E-025326 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 1999-cu ildə Süleymanlı Şamil Akif oğluna verilmiş A-031734 nömrəli bakalavr və 2001-ci ildə verilmiş MNA-004738 nömrəli magistr diplomları itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Hüseynov Rüfət Asəf oğluna verilmiş AN-129024 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli Texniki Peşə Məktəbi tərəfindən 1992-ci ildə Məmmədov Rasim Şahbala oğluna verilmiş Г-394505 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Qorçuyeva (Muradova) Vüsalə Haqverdi qızına verilmiş B-408508 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Mustafazadə Şəms Hikmət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Yanğın-Texniki Məktəbi** tərəfindən 2003-cü ildə İbrahimov Seymur Ağahüseyn oğluna verilmiş AB-II-105857 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Viləş kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Hacıyev Vüqar Əliyoldaş oğluna verilmiş A-080739 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** İnstitut qəsəbə tam orta məktəbini 2006-cı ildə bitirmiş Hüseynova Mədinə Mirmövsüm qızına verilmiş B-251069 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Şirinbəy kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Nəcimov Turqut Şahdəmir oğluna verilmiş A-385382 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Şirinbəy kənd tam orta məktəbinin IX sinfini 2007-ci ildə bitirmiş Nəcimov Ələddin Şahdəmir oğluna verilmiş 508804 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məhərrəmov Mustafa Rövşən oğluna verilmiş A-057630 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Girdəni kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş İbrahimzadə Zərif Fail qızına verilmiş B-719816 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Mirzəyev Ramil İkraməli oğluna verilmiş B-208858 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Həsənov Tural Vidadi oğluna verilmiş B-264147 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Atakişiyev Musa Ağahəsən oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1999-cu ildə Nizhadasl Majid Ramazan oğluna verilmiş AC-I-000221 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**ÜİLKGİ-nin 50 illiyi adına 74 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1983-cü ildə Hacıyev Pərviz Məmmədoviçə verilmiş 411796 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun** 1985-ci il məzunu olmuş Qafarov Əşrəf Məhəmməd oğluna 2004-cü ildə verilmiş AB-086595 nömrəli dublikat diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli "Müəllif məktəbi"nin IX sinfini 1998-ci ildə bitirmiş Nağıyeva Larisa Əsgər qızına verilmiş B-090005 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 5 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Xəlilov Hacıxəlil İlqar oğluna verilmiş E-073325 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2016-cı ildə Məmmədli Səbiyə Novruz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Hüseynov Xanmurad Yusif oğluna verilmiş A-678080 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2017-ci ildə Səmədov Ayət Adil oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** akademik Zərifə Əliyeva adına məktəb-liseyi 2009-cu ildə bitirmiş Orucova Gülşən Vidadi qızına verilmiş B-569366 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** 7 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Sadıqova Məhsəti Cabir qızına verilmiş 999666 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 39 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Sədiyeva Jalə Seyfixan qızına verilmiş BN-447875 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı İdarəetmə və Texnologiya Kollecinin kollektivi kollecin direktoru Faiq Şahbazlıya dayısı

**QARAKİŞİ MEHDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.




# Uğurun sinonimi

## Herrou kolleci: ənənələrlə zəngin tarixi gələcəyin təhsili ilə bağlayan körpü





⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Kollecin kommersiya departamentinin rəhbəri Harri Oqdenin fikrincə, Məlumat Kommunikasiya Sistemi məktəbdə tətbiq edilən ən inqilabi dəyişiklikdir. Bu sistemin köməyi ilə internet vasitəsilə təhsil almaq, interaktiv dərslər keçmək mümkündür: "Çağdaş təhsili müasir kompüter texnologiyası olmadan təsəvvür etmək mümkün deyil".

Herrouda dünyanın hər yerindən uşaqlar təhsil alır. Bu baxımdan, kollecdəki linqvistik rəngarəngliyi təsəvvür etmək çətin deyil. Təsadüfi deyil ki, tədris olunanlar arasında rus və yapon dilləri kimi "ekzotik" sayılacaq dillər də var. Bu rəngarəngliyin nəticəsidir ki, Herrouda kök salmış stereotiplər yoxdur. Məktəbdə məşhur olan köhnə mahnıda oxunduğu kimi: "Hamınız xoş gəlmişsiniz, dövlət məmurları da, şairlər də".

Herrou kollecində keçilməyən fənn yoxdur. Ancaq əsas fənlərlə yanaşı, tələbəyə geniş ictimai dərslər seçimi təklif edilir. Dərslərin bir qismi məktəb proqramının davamı kimi təqdim olunur, digər hissəsi isə sadəcə olaraq ənənələrə hörmət göstəricisidir. Hər bir uşaq təbii elmlər və yaxud diskussiya cəmiyyətlərinə üzv ola bilər. İdman dərnəkləri ilə yanaşı, musiqi təmayülü Herrounu fərqləndirən mühüm cəhətlərdən biridir. Tarixən mahnı ifa etmək kollec həyatının elementlərindən biri olub. Bu ənənə əsasını 1864-cü ildən götürür. Musiqi müəllimi C.Farmer uşaqlara ilk mahnını yazmaqla məktəbin daha bir ənənəsinin əsasını qoyub. Təsəvvür edin, iki əsr əvvəl yazılmış mahnılar indi də kollecdə təhsil alanlar üçün sevgi, dostluq və bərabərlik simvollarıdır. Herrounun qeyri-rəsmi himni olan "Forty Years On" mahnısının ifa olunmadığı bayram şənliyi şənlik sayılmır.

### Zadəganlar yuvası

Hər bir təhsil ocağı özünün tədris proqramı ilə yanaşı, məzunları ilə də məşhurdur. Reallıq budur ki, müasir həyatımızın aparıcı trendlərindən biri olan "brend" anlayışı fəaliyyətimizin bütün sferalarına sirayət edib. Bu nöqteyi-nəzərdən yanaşsaq, insan fəaliyyətinin müxtəlif sahələrində məşhur olmuş məzunlar bitirdikləri təhsil müəssisələrinin bir növ brendləridirlər. Söhbət Herrounun brend-məzunlarından düşərsə, siyahı çox uzun olacaq. Gəlin onlardan bir neçəsinin adlarını qeyd edək.

Britaniyanın müxtəlif illərdə baş nazirləri olmuş 7 hökumət başçısı Herroudan məzun olub. Onlardan ən populyarı təbii ki, Uinston Çörçildir. Hindistanın sabiq baş naziri Cəvahirlər Nehru burada oxuyub. İordaniya kralı Hüseyn ben Talal, İraq kralı II Feysal, Qətər əmiri Tamim bin Hamad Əl Tani isə kollecdən məzun olmuş monarxlardır. Yazıçı Con Qolsuorsi, şair Şeridan Herrounun dəhlizlərindən çıxıblar. Britaniya parlamentinin hər çağırışında onlarla Herrou məzununu saymaq olar. Söhbət parlamentdən düşmüşkən, Mühafizəkarlar Partiyasının əsasını qoymuş Robert Pi də burada təhsil alıb. Rotşildlər ailəsini bütünlüklə Herrounun hesabına yazmaq olar. Siyahını uzatmaq da olar, ancaq adlar çoxdur. Kimə maraqlıdırsa, sadəcə "Wikipedia"ya müraciət edə bilər: Herrounun məzunları arasında əlifbanın bütün hərfləri ilə başlayan məşhur soyadlar var.

Məşhur simalar öz yerində, ancaq belə bir sual oluna bilər: axı necə oldu və olur ki, bütün tanınmışlar Herroudan məzun olurlar? İzahı sadədir: bu kollecdə ənənələrdən qaynaqlanan Britaniya standartlı klassik, eyni zamanda, yüksək səviyyəli müasir elitar təhsil verilir. Yəni buradan məzun olarkən hansısa sahədə məşhur olmamaq sadəcə fərasət işidir. Herrouda oxumaq Britaniya cəmiyyətinin yüksək təbəqələrinə qoşulmaq üçün unikal imkandır. Britaniyalı məktəblilər üçün bu kollec-internata daxil olmaq uğur və bəxt anlayışları ilə sinonimdir.

Hər il təqribən 800 oğlan uşağının təhsil aldığı Herrou kolleci sanki bir centlemen emalatxanasıdır. Siz onların geyimlərinə fikir verin: ağ köynək, tünd göy rəngdə pencək, qara ipək qalstuk, qara ayaqqabı, boz şalvar, mavi cemper və təbii ki, dünyaca məşhur "saman" silindr papaq. Bu, dərslərə geyinilən ənənəvi məktəbli formasıdır. Həftəsonu günləri geyim tərzində yüngül dəyişiklik edilir: ağ köynək, qara silindr, qara frak, qara jilet,qara qalstuk və zolaqlı şalvar. Herrouda oxuyan 13-17 yaşlı oğlanlar istəsələr də, centlemen olmaya bilməzlər!

### Kollec, ya klublar birliyi?

Bir az da tədris proqramı barədə. Herrouda dərslər ingilis dilində tədris olunur. Fənlər orta məktəblərə xas GCSE, A-level əsasında keçilir. Kollecdə ənənəvi dərslər bir yana, tədris proqramının dərinləşdirilməsi üçün geniş imkanlar var. Söhbət prioritet fənlərin daha əsaslı şəkildə əxz olunmasından gedir. "Electives" standart məktəb proqramına daxil deyil və özündə seçilmiş fənnin universitet səviyyəsində öyrənilməsini əks etdirir. "Electives" müraciət edildikdə ənənəvi fənlərlə yanaşı, hansısa yeni bilik sahəsi, yaxud seçiləcək peşə ilə bağlı dərs də ola bilər. Məsələn, Herrouda bunlar təklif olunur:

- Münaqişələrin həlli;
- Dərinləşdirilmiş fizika;
- Kulturologiya;
- Beynəlxalq tibb;
- Psixoanalizə giriş;
- İqtisadi nəzəriyyələr;
- Reformasiya;
- Dizayn yarışları;
- Proqramlaşdırma;
- Antik tarix;
- Maliyyə işi;
- Musiqi texnologiyaları;
- Qərb incəsənətinin tarixi və s.

12-ci sinifdə uşaqlar tyutorların köməkliyi ilə özlərinə gələcək peşələrini və daxil olacaqları ali məktəbləri müəyyən edirlər. Adəti üzrə Herrounun məzunları Britaniyanın Kembric və Oksford universitetlərinə müraciət etsələr də, onlara digər ölkələrin ali məktəblərinə daxil olmaları yolunda hər hansı manеə tətbiq olunmur.

Əksər internat-məktəblərdən fərqli olaraq Herrouda yayda da dərslər keçilir. Ancaq könüllülük əsasında. 8-13 yaşlı uşaqlara "multiaktivlik kursları" təklif olunur. İyun-avqust aylarını əhatə edən kurslarda ingilislərlə yanaşı, dünyanın müxtəlif ölkələrindən olan uşaqlar da təhsil alır. Adından da göründüyü kimi, bu kursların əsas məqsədi uşağı daima aktiv tonusda saxlamaqdır. Təsadüfi deyil ki, dərslərin əksəriyyəti idman və yaradıcılıqla bağlıdır.

Aktivlikdən söz düşmüşkən, Herrouda uşaqlar kifayət qədər sosiallaşmışdılar. Kollecdə maraq, zövq və fikir birliyinin formalaşmasında əvəzsiz rol oynayan 56 klub fəaliyyət göstərir. Bir neçəsinin adını çəksək, söhbətin hansı miqyasdan getdiyi bəlli olur:

- Siyasi klub;
- Latın Amerikası klubu;
- Tibb birliyi;
- Bioloqlar cəmiyyəti;
- Gəmiqayıranlar klubu;
- Məktəb ferması klubu;
- Riyazi birlik və...

Və saysız-hesabsız dərnəklər: siyasi, astronomiya, ədəbiyyat, kulinar, atçılıq, şahmat, xarici dillər, filosoflar klubları. Hətta Pendir İstehsalçıları Birliyi. Herrouda oxumamaq mümkündürmü?

# "Qaratoxmaq qadın"

## Çaykovskinin əsəri opera-studiyasının səhnəsində

**M.İ.BABAYEVA,**

*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasının baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

XIX əsrin ikinci yarısında rus musiqi mədəniyyətinin görkəmli nümayəndələri sırasında Pyotr İliç Çaykovski böyük nüfuza malik olan bəstəkar kimi rus musiqi tarixinə daxil olmuşdur. O, bəstəkar, dirijor, müəllim, musiqi ictimai xadim kimi fəaliyyət göstərmişdir və yaradıcılığının bu sahələri bir-biri ilə sıx bağlı idi. Bir bəstəkar kimi o, yaradıcılığında M.İ.Qlinka və A.S.Darqomıjski ənənələrini davam etdirmiş, bununla yanaşı öz fərdi, özünəməxsus üslubunu yarada bilmişdir. Eləcə də o, Qərbi Avropa bəstəkarlarının yaratdıqları ənənələrə yaxından yiyələnmiş və əsərlərində tətbiq etmişdir.

P.İ.Çaykovski rus musiqisində lirik sənətkar kimi çıxış edərək rus romantizminin parlaq nümayəndəsi kimi tanınırdı. O, insanın xoşbəxtliyi uğrunda mübarizə mövzusunu, arzuları həyata keçməyən insanların çırpıntısını, zərif, saf duyğularını, qəlbinin dərinliyini, həyat mücadiləsini tam gerçəkliyi ilə dinləyicilərə çatdırmağı bacarırdı. Bu mövzu P.Çaykovski yaradıcılığında qırmızı xətt kimi keçərək bir sıra əsərlərində, o cümlədən "Romeo və Cülyetta" uvertüra-fantaziyasında, "Yevgeni Onegin", "Qaratoxmaq qadın", "İolanta" kimi operalarda, eləcə də Dördüncü, Beşinci, Altıncı simfoniyalarda özünü büruzə verir. Hər bir sənət nümunəsində - sözün əsl mənasında, bəstəkar şedevr yaradaraq öz adını rus musiqi tarixinə qızıl hərflərlə həkk etmişdir.

Qeyd etməliyik ki, P.Çaykovski dövrün bütün janr və formalarına müraciət etmişdir. Onun yaradıcılığında opera, balet, simfoniya, konsert, xor əsərləri, orkestr üçün süita və fantaziyalar, fortepiano əsərləri və s. kimi janrlara müraciət olunmuşdur. Bəstəkarın bu baxımdan operaları xüsusi diqqətə layiqdir. 10 opera müəllifi olan P.Çaykovski operalarında təbiiliyə, gerçəkliyə, yaratdığı obrazları inandırıcı şəkildə təqdim etməyə can atırdı. O, operalarında əsas süjet xəttindən kənara uzaqlaşmağı, artıq məqamları, bütün inkişafı ləngidə biləcək məsələləri aradan qaldırırdı və real, təbii məzmuna malik olan səhnə əsərləri yaradırdı.

Bəstəkarın opera yaradıcılığında üç opera Puşkin yaradıcılığı ilə bağlı olub və bu əsərlər sırasında "Yevgeni Onegin", "Mazepa" və "Qaratoxmaq qadın" bəstəkarın musiqi səhnə əsərlərinin ən gözəl nümunəsi kimi təqdim olunub. Bu baxımdan bəstəkarın 1890-cı ildə İtaliyada (Florensiya) qısa bir müddətə ərsəyə gətirdiyi "Qaratoxmaq qadın" operası öz dramaturgiyası ilə böyük maraq doğurur. Opera rus ədəbiyyatının klassiki A.S.Puşkinin eyni adlı əsəri əsasında yazılmışdır. Opera nəinki P.Çaykovski yaradıcılığının zirvəsidir, bu opera dünya opera sənətinin ən gözəl nümunəsidir ki, dünyanın ən mötəbər teatr səhnələrində tamaşaya qoyulmuş və böyük rəğbət qazanmışdır.

Bu yaxınlarda - 8 və 11 mart 2019-cu il tarixlərində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən opera-studiyasının səhnəsində "Qaratoxmaq qadın" operası tamaşaya qoyulub. Tamaşanın ərsəyə gəlməsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tədris işləri üzrə birinci prorektoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, Əməkdar müəllim N.Quliyevanın, eləcə də opera -studiyasının direktoru H.Həsənovun böyük dəstəyi olmuşdur.

Opera studiyası 1961-ci ildən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərir. Məhz burada Ü.Hacıbəyli adına BMA-nın vokal kafedrasının tələbələri təhsil və təcrübə baxımından böyük nailiyyətlər əldə edirlər. Uzun illərdir ki, burada Qərb, rus və Azərbaycan bəstəkarlarının opera tamaşaları uğurla oynanılır. Bu uğurun bir nümunəsi kimi dahi P.Çaykovskinin "Qaratoxmaq qadın" operasının opera studiyasının səhnəsində canlandırılmasıdır. Operanı səhnələşdirməkdən ötrü Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəhbərliyi tərəfindən Rusiyadan gənc rejissor, beynəlxalq müsabiqələr laureatı A.Smirnov dəvət olunmuşdur. Eləcə də tamaşanın səhnələşdirilməsində quruluşçu rəssam Yelena Badrova (Rusiya), tamaşanın dirijoru opera - studiyasının bədii rəhbəri, Azərbaycan Respublikasının Xalq artisti F.Kərimov, xormeyster Azərbaycan Respublikasının Xalq artisti G.İmanova, konsertmeyster Y.Kərimova yaxından iştirak etmişdilər və çox maraqlı tamaşanın ərsəyə gəlməsinə nail olmuşdular. Bundan əlavə, opera-studiyasının solistləri, eləcə də dəvət olunmuş solistlər, o cümlədən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Solo oxuma" kafedrasının tələbələri cəlb olunmuşdur. Tamaşaya opera-studiyasının xor kollektivi və 12 nömrəli musiqi məktəbinin uşaq xoru da dəvət edilmişdir. Baş rolların ifaçıları sırasında A.Axundov, F.Məmmədova, S.Əsədova, A.Ferşdant və başqalarının adlarını çəkmək olar ki, P.Çaykovskinin ən inci nümunəsini maraqla və yüksək professionalizm ilə səsləndirmişdilər.

P.Çaykovskinin səhnə əsəri öz dolğunluğu, rəngarəng və yaddaqalan obrazları ilə zəngin olan operadır. Onun dramaturji inkişafı eyni vaxtda yazılan Altıncı simfoniya ("Patetik" h-moll) ilə oxşardır. Hər iki əsərdə yüksək faciənin nümunəsini izləyirik. Bəstəkarın "Qaratoxmaq qadın" operasında əks etdirdiyi dramatik-faciə mövzusu Altıncı h-moll simfoniyasında öz əksini tapır. Məhz bu iki əsər bir tərəfdən opera dramaturgiyasının zirvəsidir, digər tərəfdən də Altıncı simfoniya simfonik yaradıcılığının kulminasiyasıdır. Operada bir neçə leytmotivlərdən istifadə olunmuşdur: saf sevgi hisslərini əks etdirən məhəbbət mövzusu, şər qüvvələrini təmsil edən - üç kartın, Qrafinyanın və Tomskinin balladasının mövzularına qarşı qoyulmuşdur. Bu mövzular opera boyu dəyişilərək, inkişaf olunaraq keyfiyyətcə yeniləşir ki, bu da opera musiqisinin simfonikləşdirilməsinin göstəricisidir. Səhnə əsərində əsas qəhrəmanların daxili aləmini, hiss və həyəcanlarını göstərməklə yanaşı P.Çaykovski ikinci dərəcəli qəhrəmanlara da operada böyük diqqət yetirmişdir. Onlar sanki əsas qəhrəmanların talelərinin gedişatında xüsusi rol oynayan obrazlar kimi çıxış edirlər. Tamaşada ikinci dərəcəli obrazları canlandıran opera solistləri bunun öhdəsindən bacarıqla gəlirlər. Məhz operanın səhnədə oynanılmasının ən mürəkkəb və çətin tərəfləri ondan ibarətdir ki, əsas qəhrəmanların təqdimatı ilə yanaşı köməkçi planda verilən obrazlar da xüsusi rol oynayır. Buna görə də "Qaratoxmaq qadın" dramaturgiyanın ən ciddi nailiyyətlərini cəmləşdirərək opera sənətinin ən nadir nümunəsinə çevrilib.

Opera üç pərdə və yeddi şəkildən ibarətdir. Puşkinin eyniadlı əsərinə yazılmasına baxmayaraq operanın librettosunda bəzi dəyişikliklər də vardır. Belə ki, operanın baş qəhrəmanı German obrazının təsviri və Lizaya olan münasibəti opera və povest arasındakı olan əsas fərqlilikdir. A.Puşkinin yaratdığı German obrazı əvvəldən axıradək varlanmaq niyyətində olan qumarbaz obrazın təsviri ilə bağlıdır. P.Çaykovskinin yaratdığı German isə sevdiyi qız Lizaya görə, onunla qovuşmaq məqsədilə varlanmaq arzusundadır. Operada German bir qədər müsbətləşmiş qəhrəman kimi çıxış etsə də, daha sonrakı inkişaf mərhələlərində artıq A.Puşkin və P.Çaykovskinin "German"ı bərabərləşir və üç kartın sirrinə yiyələnmək və varlanmaq arzusu Germanın ən başlıca amilinə çevrilir. Qeyd etməliyik ki, povest və opera arasında olan fərqlilik yalnız German obrazı ilə bağlı deyil, bu sözləri eləcə də Liza obrazı haqqında da demək olar. Puşkin əsərində Lizanı Qrafinyanın kasıb qohumu kimi göstərir, yalnız operada isə o, Qrafinyanın varlı nəvəsi kimi təqdim olunur. Bununla da German və Liza arasında olan sosial bərabərsizlik daha da dərinləşmiş olur.

Operanın musiqi dramaturgiyasının inkişafında iki əks qüvvənin toqquşdurulması diqqəti cəlb edir. Bunlardan birincisi saf, dərin, ülvi məhəbbət hissi ilə bağlı olan əsas qəhrəmanların sevgi münasibətləridir, ikinci əks qüvvə isə məhəbbətə qarşı olan şər qüvvələrdir ki, bu da Germanın təsəvvüründə Qrafinya obrazı ilə bağlıdır. Operada Qrafinya obrazı ölümlə bağlı olan bir obrazdır. German onu öldürdükdən sonra anlayır ki, onun Liza ilə qovuşması heç zaman mümkün olmayacaq, ona görə də bu opera böyük bir faciə ilə tamamlanır və operanın VI şəklində Liza, VII şəklində isə German həlak olur.

Təbii ki, operanın məzmununun açılmasında musiqi əsas faktor kimi çıxış edir. Əsas qəhrəmanların musiqi səciyyəsi nəinki zəngindir, bu musiqi nömrələri operadan kənarda da sevilir və dönə-dönə ifa edilir.

Biz opera-studiyasının kollektivini ürəkdən təbrik edirik. Onlara gələcək işlərində yeni-yeni nailiyyətlər arzulayırıq. P.Çaykovskinin "Qaratoxmaq qadın" operası opera-studiyasının səhnəsində ilk dəfə tamaşaya qoyularaq böyük uğurla nəticələndi və biz bu səhnədə daha neçə-neçə maraqlı, dünya və Azərbaycan bəstəkarlarının əsərlərinin canlanmasını ümid edirik və arzulayırıq.